# YUSİF SEYİDOV
# yaradıcılığından seçmələr

Bakı-2016

**Tərtib edənlər:**

*Fəlsəfə üzrə elmlər doktoru*
**Mətanət Əli qızı Abdullayeva**
*Filologiya üzrə fəlsəfə doktoru*
**Rəna Dursunəli qızı Mahmudova**

**Redaktor:** *Filologiya üzrə fəlsəfə doktoru*
**Elçin Hüseyn oğlu Məmmədov**

Mətanət Abdullayeva, Rəna Mahmudova.
**Yusif Seyidov yaradıcılığından seçmələr.**
Bakı. Turxan NPB, 2016. - 104 səh.

Kitabda XX əsrin görkəmli dilçi alimlərindən biri Dövlət Mükafatı laureatı, Əməkdar Elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Yusif Seyidovun çoxşaxəli yaradıcılığından seçilmiş maraqlı, düşündürücü, hikmətli fikirləri verilir. Bu seçmələr vasitəsilə alimin dərin ağlı, həssas və kövrək qəlb aləmi və hikmət dünyasının ənginlikləri ilə tanış olmaq mümkündür. Onların – seçmələrin bir qismi geniş rakursda verilir (mənadan çıxış edərək), bir qismi isə o qədər ümumiləşdirilmə müstəvisində çıxış edir ki, onları hər bir insan atalar sözü, hikmətli deyim, nəsihət və tövsiyə kimi qəbul edə bilər.

$S\frac{4702060104-060}{(TNP)-2016}$

© M.Ə.Abdullayeva, R.D.Mahmudova, 2016

# MÜNDƏRİCAT

Ön söz ........................................................ 5

**I HİSSƏ**

Dil və söz haqqında ........................................ 15
Ana dili haqqında ............................................ 17
Ədəbi dil və bədii dil haqqında ........................ 23
Ədəbiyyat və ədəbi tənqid haqqında .................. 26
Elm və tədris məsələləri haqqında ..................... 30
Həyat və dünya haqqında ................................. 35
Şair və poeziya haqqında ................................. 39
Sənət və sənətkar haqqında .............................. 44
Tarix, demokratiya və ədalət haqqında ............... 47
İstedad və istedadsızlıq haqqında ...................... 49
Ürək, məhəbbət və xoşbəxtlik haqqında ............. 51
Vətən haqqında ............................................... 56
Ailə, qadın haqqında ....................................... 57
İnsan haqqında ............................................... 59
Yalan və yaltaqlıq haqqında .............................. 64

**II HİSSƏ**

Görkəmli şəxsiyyətlər haqqında ........................ 67

## Ön söz

Bəşər tarixinin yaddaşı hüdudsuz üfüqlərə uzandığı qədər orada sakin olan insanların – xalqı, milləti üçün, insanlar və insanlıq üçün yararlı işlər görən görkəmli şəxsiyyətlərin xatirəsi də yaddaşlardakı əbədiliyə qədər uzanır. "Yararlı işlər" anlayışını müxtəlif səviyyələrdə başa düşmək olar; o, məhəlli səciyyə də daşıya bilər, geniş mənada, ümumbəşəri mahiyyət də. Bu baxımdan, elm adamlarının fədakar fəaliyyəti yararlılıq səviyyəsinin yüksək mərtəbəsində dayanır. Elmin milli mənsubiyyəti olmadığı kimi, alimlərin fəaliyyəti və əməyinin faydalığı da, milli mənsubiyyətlərindən asılı olmayaraq, ümumbəşəri, planetar əhəmiyyətə malikdir. Dövlət Mükafatı laureatı, Prezident təqaüdçüsü, filologiya elmləri doktoru, professor Yusif Mirəhməd oğlu Seyidovun (1929-2013) elmi-yaradıcı fəaliyyəti ümumbəşəri əhəmiyyətə malikdir, - desək, səhv etmərik. Onun dil, milli dil, ədəbi dil, ədəbi tənqid və bədii dil, qrammatika problemləri, tədris məsələləri və s. ilə bağlı araşdırmaları qiymətli əsərlərdir. Bu əsərlər əcnəbi dillərə tərcümə edilərsə, həmin xalqların da milli maraqlarına cavab verdiyi aşkar olar. Alimin əsərlərinin dəyəri mahiyyətlərindən irəli gəldiyi qədər, həm də dilinin olduqca anlaşıqlı,

əlçatar və oxunaqlı olmasındadır. Böyük şəxsiyyətləri adi insanlardan fərqləndirən cəhətlərdən biri də məhz fikirlərini yığcam, aydın, sadə, lakonik ifadə etmə bacarığına sahib olmalarıdır. Deyirlər ki, dahilik sadəlikdir. Yusif Seyidovun bir alim kimi özəl xüsusiyyətlərindən biri belə keyfiyyətə malik olmasında idi. Alim nədən yazmasından asılı olamayaraq, həmişə fikirlərini mütəxəssislərlə yanaşı tələbələr də, sadəcə, adi insanlar da başa düşsün deyə, rahat ifadə tərzində çatdırırdı. Belə keyfiyyət onun həm insanlara, həm də ana dilinə sevgisindən irəli gəlirdi. Onun bütün əsərlərini Azərbaycan dilinin nümunəvi təqdimatı kimi dəyərləndirmək olar. Yusif Seyidovun dilə sevgisi, əslində, bütöv sevginin – həyata, yaradılışa olan sevgisinin tərkib hissəsi idi. O, həyatı bütün atributları ilə, "əyər-əskiklikləri" ilə vəhdətdə sevirdi.

İnsan, adətən, sevdiyini seyr edir, onun hər şeyini – yaxşısını da, pisini də olduğu kimi qəbul edir; insan həyatı sevirsə, dəyərləndirirsə, onun "hər üzünü" qəbul etməyi bacarır. Bu, böyük ürəkli insanlara xas xüsusiyyətdir. Yusif müəllim də belə insan idi. O, həyata "baxmaqdan" doymurdu; insanlara, təbiətə, aləmə müşahidə prizmasından baxırdı; o, iştirakçıdansa daha çox seyrçi idi. Həyatı müşahidə etmək müdriklərin "peşəsi"dir. Platon seyrçi insanları filosof adlandırırdı, çünki onlar adi insanların görə bilmədikləri incəlikləri, gözəllikləri, əbədi

substansiyanın materiyadakı təzahürünü görməyi bacarırlar. Həyata seyrçi mövqedən yanaşanlar həssas, duyğulu olduqları üçün başqalarının görə və sezə bilmədiklərini fərqləndirməyi bacarırlar. Həyatda "iştirakçı" insanlarsa həyatla çulğalaşıb yaşayırlar, başlarını qaldırıb ona – həyata "kənardan" baxmadan ömür sürürlər, bu səbəbdən də onun necə gəlib- getdiyini görmürlər; bir də ayılırlar ki, həyat başa çatmaq üzrədir. Belə insanlar çox faydalı işlər də görürlər, öz sahələrində yüksək zirvələr də fəth edirlər, amma daha vacib olanı - həyatın min bir çalarını və onların vəhdətini duymurlar.

Seyrçilər həyatın hər anından xəbərdar olurlar, hər anından zövq alırlar, onu – həyatı pillə-pillə adlayır, damla-damla həzm edirlər; hər günü doyaraq yaşayıb yola salırlar; kimlərsə də yaşantılarını (həyatının ağ-qara naxışları kimi) müxtəlif formalarda tarixin yaddaşıına həkk edirlər. Profesor Yusif Seyidov da belə insanlardan idi. O, həyatının anlarının gözəlliyini də, əzabını da bütün varlığı ilə, dolğun yaşayırdı; zövq almağı da, əzab çəkməyi də, gülməyi də, ağlamağı da bacarırdı - xalq şairimiz Bəxtiyar Vahabzadənin əsil insan həyatı üçün müəyyənləşdirdiyi kredoya uyğun şəkildə bacarırdı:

*Qardaş, min duyğu ötsün ürəyindən bir anda,*
*Sən qımışma güləndə, inləmə ağlayanda.*
*Ağlasan, hönkür ağla, gülsən, qəhqəhə çək gül,*
*Gülsən də, ağlasan da, tamam doysun qoy könül.*

Yusif müəllim insanın ağlamaq – gülmək hallarına xüsusi məna verərək yazırdı:"Ağlamaqla gülmək bir-birinin əksi deyil, bir-birini tamamlayan ülvi keyfiyyətlərdir. Gülməyi bacaran insan ağlamağı da bacarmalıdır. Ağlamaq gülməkdən daha böyük keyfiyyətdir. Ancaq gərək dünyadan, insandan küsüb ağlamayasan, kiçik hisslərlə ağlamayasan. Heyrətdən ağlayasan, sevincdən ağlayasan, sənətin ecazından ağlayasan. Həyat haqqında, ömür haqqında dərin mənalı mahnıları oxuyanda ağlayasan". Yusif müəllim insana böyük yaradıcı qüvvə kimi baxdığı üçün onun emosional-hissi hallarına, o cümlədən, ağlamağına da, gülməyinə də sırf yaradıcılıq aktının ifadəsi kimi baxırdı.

Yusif müəllim həyatda doyunca güldü də, ağladı da, ancaq özünün «içində ağlayıb, üzdə gülən insanlar əsl insanlardır» - deyimindəki əxlaq normasına sadiq qalaraq heyrətdən ağlayanda aşkar ağladı; öz kədərinə ağlayanda isə gizli. O, heç vaxt şəxsi motivlərdən yaşanan hisslərini büruzə vermədi. Dünyasını dəyişəndə də gülə-gülə getdi, əsil insan kimi, böyük iradə sahibi kimi, amma onun qəlbinin içi ağlayırdı!

Yusif Seyidovda gördüklərini, duyduqlarını təfəkkür süzgəcindən keçirərək ümumiləşdirmək, söz qəliblərinə salıb  deyim, kəlam libasına bürümək istedadı var idi. Belə bacarıqda obrazlı düşüncə, fəlsəfi təfəkkür və lakonik ifadə tərzi bütöv şəkildə

birləşmişdir.

Alimin seyrçi düşüncələri bütün əsərlərinin içərisindən qırmızı xətlə keçir. Onlar – düşüncələr, hər şeydən əvvəl, zərif duyğulu, kövrək qəlbli həssas insanın həyat, mövcudluq haqqında, mövcudluğun içərisində yaşananların, duyulanların, həmçinin yaşanması arzulanan və arzulanmayanların verbal ifadəsidir. "Seyrçi insan" tipi heç də passiv insan deyil, o, həyatın hər anına müdaxilə edir, bəyəndiyindən zövq alır, bəyənmədiyinə iradını bildirir.

Professor Yusif Seyidov dilin ruhunu, bəlkə də, hamıdan yaxşı hiss edirdi. O, ana dilinin nəzəri problemləri ilə məşğul olarkən dilin həm keçmişini, həm indisini, həm də gələcəyini xüsusi şövqlə hiss edir, dili canlı varlıq kimi dəyərləndirirdi. Onun ana dilinə sonsuz məhəbbətinin sirrini anlamaq üçün - "Ana dili vətəndir, el-obadır, doğma torpaqdır, vətənin çölləridir, çaylarıdır, insanlarıdır" – fikri üzərində düşünmək kifayət edir. O, dilini sevdiyi üçündür ki, onun gələcək halı haqqında da düşünürdü. Məsələn, alim 1958-ci ildə yazdığı «Apostrof haqqında» adlı məqaləsində uzaqgörənlik edərək belə yazır:"Azərbaycan dilində apostrofla yazılan sözlərin ayrı-ayrı tarixi dövrlərdəki taleyinə, onların dəyişmə və uyğunlaşma xüsusiyyətlərinə nəzər saldıqda və bunu dilimizin ümumi inkişaf istiaməti ilə əlaqələndirdikdə asanlıqla belə bir nəticəyə gəlmək olur ku, hal-hazırda apostrofla

yazılmalı olan sözlərin heç birini müəyyən dövrdən sonra apostrofla yazmağa ehtiyac olmayacaqdır". Alimin elmi proqnozu 90-cı illərdə reallaşdı. Professorun orfoqrafiya, dilin tədrisi, ədəbi dilin inkişafı və s. məsələlərlə də bağlı maraqlı proqnozları da diqqəti çəkir.

Yusif müəllimin fəaliyyəti professional sahəsi ilə məhdudlaşmırdı; o, milli mədəniyyətimizin, musiqimizin, muğamın aşiqi idi və bu sahədə duyduğu, gördüyü və dinlədiyi hər bir sənətkarın sənətinə münasibətini, heyranlığını bildirdiyi kimi, mədəniyyətimizə, mənəviyyatımıza yad və zərərli olanları tənqid edirdi. "Ədəbiyyat" qəzetində çap etdirdiyi məqalələrdən birində o belə deyir: "Azərbaycan musiqisinin bayağılaşdırılımasında zorən «şairlik» edənlərin, onların poeziyadan, mənadan uzaq «şeirlərinə» «musiqi» qoşanların günahları da az deyil, iş o yerə çatıb ki, vokal sənətində heç bir uğuru olmayan bir savadsız iki kəlmə oxuyandan sonra «musiqi bəstələməyə» başlayır, bir qədərdən sonra da «şeir yazmağa» can atır". Professor Y.Seyidovun milli heysiyyəti üsyan edərək – "Azərbaycanlı adını daşıyan adamların bu xalqın adətlərini ifrat dərəcədə pozmağa ixtiyarı yoxdur,"- deyirdi. Bu təəssübkeş insan, ümumiyyətlə, hansı sahədə olursa olsun, yerini tanımayan, səviyyəsini bilməyən adamları cəmiyyət üçün böyük bəla hesab edirdi, "sənətkar ad axtarmaqla yox, öz sənətini inkişaf etdiməklə, savadını

artırmaqla yüksələ bilər,“ - deyib insanları şöhrətpərəstlik girdabından uzaqlaşdırmağa çağırırdı.

Yusif Seyidovun insanlarda ən çox dəyər verdiyi keyfiyyətlərdən biri və bəlkə də, birincisi zəhmətsevərlik idi. O, həyatda nəyə çatmışdısa, onları böyük zəhməti hesabına əldə etmişdi, ona görə də həmişə insanlara, xüsusən, cavanlara tövsiyəsi elm, bilik dalınca düşmək, savad qazanmaq amalına sahib olmaq idi. "Elmi dərəcə fəxri ad, orden, medal deyil; bu ada çatmaq üçün gərgin elm yollarını keçmək, elmi dərəcədən əvvəl elmi səviyyəyə çatmaq lazımdır"- deyirdi.

Yusif Seyidov filoloq idi, amma onun insan, təbiət, həyat və dünya haqqındakı düşündürücü fikirlərini Azərbaycan fəlsəfi mədəniyyətinə, əxlaq və gözəllik mədəniyyətinə töhfə hesab etmək olar. Fəlsəfə üçün maraqlı olan «insan və dünya», «insan və təbiət» qarşılığı, vəhdəti alimin bütün yaradıcılığı boyu özünü göstərib. «İnsan öyrənir, hamı öyrənir. Çoban da, alim də, evdar qadın da, nazir də. Eşıdır-öyrənir, görür-öyrənir... Yağışın və qarın yağmasından, küləkdən, axar sulardan, meşədən, çöldən, çəməndən, dənizdən, dağdan, təbiətin hər dönüşündən, canlılar və cansızlar aləmindən öyrənir», - deyən alim üçün insanı yaradan təbiət həm də onun örnək mənbəyi, müəllimi, yol göstərənidir.

Bu kitabda təqdim edilən fikirlər görkəmli alimin ədəbi-elmi-nəzəri və publisistik əsərlərindən

seçilib. Onların məzmun diapazonu çox genişdir – filologiyanın, demək olar ki, bütün sahələrini ehtiva etməklə bərabər, burada insan, həyat, dünya haqqında, sənətin müxtəlif sahələri haqqında fikir və deyimləri yer alıb. Seçmələrin bir qismi alimin müəyyən obyekt və ya hadisə haqqında geniş fikirləridirsə, bir qismi də lakonik deyimləri, aforizmləridir.

Professor Yusif Seyidovun maraqlı fikir dünyasına, mənəviyyat aləminə səyahət etmək üçün onun yaradıcılığından toplanan seçmələr əlverişli vasitədir. «Seçmələr» kitabı görkəmli alimin həm zəngin, həm də çox incə və kövrək mənəvi dünyasının güzgüsü kimi dəyərləndirilə bilər.

*Fəlsəfə üzrə elmlər doktoru*
**Mətanət Abdullayeva**

# BİRİNCİ HİSSƏ

## *Dil və söz haqqında*

Dil ümumxalq sərvətidir, xalqın bütün fərdlərinə xidmət edir, hamı onun qeydinə qalmalı, qorumalıdır. Onun saflığı, həyatı, inkişafı o dildə danışanların hamısını maraqlandırmalıdır.

Dili taleyin hökmünə buraxmaq olmaz, onun qayğısına qalmaq, ona kömək etmək, onu inkişaf etdirmək lazımdır. Bu işdə ziyalıların, yazıçıların, dili tədqiq edib öyrənənlərin, onu tədris edənlərin rolu olduqca böyükdür.

Dil elə bir demokratik xüsusiyyətə malikdir ki, insanların hamısına xidmət edir, o hamınındır. Dil heç kəsə sərt üz göstərmir, onun qapıları insan övladının hər bir nəfərinə açıqdır. Həyatda çox şey üçün qadağalar qoyula bilər və qoyulur. Dilə qadağa qoyula bilməz (söhbət, ümumən, dildən gedir), qoyulsa, insanlıq məhv olar, sivilizasiya məhv olar.

Dil hamıdan çox yazıçıya xidmət edir, dilə də hamıdan çox yazıçı xidmət göstərir.

Söz klassik şeirin açarıdır.

Söz arxasınca uçuş şeir üçün sözlər seçib, onları misralara düzməklə məhdudlaşmır. Sözə qayğı, ana dilinə məhəbbət, sözün və dilin şəhdini-şirəsini, qüvvətini, qüdrətini duymaq bu uçuşun üfüqlərini genişləndirir, mənasını, məzmununu artırır. 50-ci ildən sonra poeziyaya gələn şairlərin özlərinə məxsus yaradıcılıq xətləri olduğu kimi, onların söz və dil haqqında düşüncələri də çoxcəhətli və rəngarəngdir.

Söz  səs kompleksi ilə - forması ilə həyat qazanır,reallaşırsa ,məna dolğunluğu ilə kamala çatır,gözəl və qüdrətli olur. Söz özünə uyğun zərif pərdəsi ilə gözəl və anlaşıqlı olur.

Söz mütləq mənada xoşagəlim, mənalı, məzmunlu da ola bilər; lüzumsuz və uyğunsuz da ola bilər; söz yerində də, yersiz də deyilə bilər. Lakin sözü qanan və qiymətləndirən yoxdursa,onda bu fərqlər aradan qalxır, yaxşı sözlə pis söz seçilmir, yaxşı sözün qədir-qiyməti bilinmir.

## *Ana dili haqqında*

Ana dili vətəndir, el-obadır, doğma torpaqdır, vətənin çölləridir, çaylarıdır, insanlarıdır.

Azərbaycan dili müasir elmi-texniki tərəqqi dövrünün bütün tələblərinə cavab verən ən zəngin dillərdən biridir.

Azərbaycan xalqı kimi, Azərbaycan dilinin də tarixi mübarizələrlə dolu olmuşdur.

Azərbaycan sovet şairləri dilə həmişə fəal münasibət bəsləmiş, dillə əlaqədar məsələlərin həllində yaxından iştirak etmiş, Azərbaycan ədəbi dilinin inkişafı üçün - onun lüğətinin zənginləşməsi, qrammatik quruluşunun təkmilləşməsi, bu dilin üslubi imkanlarının genişlənməsi, bədii vüsətinin artması, yazılı və şifahi nitq normalarının yaxşılaşması üçün çox iş görmüşlər .

Ürəyi xəlqi edən amillərin çoxu ana dili ilə bağlıdır, milli nə varsa, ana dili vasitəsilə ürəyə, cana yatır.

İnsan ana ağuşundan başlayaraq ana dili dünyasında böyüyür, anadilli laylalar və nağıllar dünyasında xumarlanır, ilk duyğu və düşüncələri, həyat təsəvvürləri ana dili əsasında yaranır. Ana dili

bilgisi belə başlanır, insanın varlığına hakim kəsilir, onun iliyinə, qanına işləyir və bu zəmin üzərində xalqın milli ənənəsi ilə həmahəng inkişaf edir, dərin mənəvi tellərlə ona bağlanır. Ona görə lap beşik başından da heç bir dil ana dilini əvəz edə bilmir.

İnsan, vətən və ana dili anlayışları bir-birini şərtləndirir, bir yerdə gözəl olur. Bu vəhdət, bu əlaqə pozulanda, insan öz doğma dilindən ayrı düşəndə, faciələr başlanır.

Körpənin milli-etnik varlığı ilə yad dilin psixologiyası uyuşa bilmir. Uşaq formal olaraq yad dili öyrənir, həm də çox yaxşı öyrənir, lakin hardasa bir naqislik, mənəvi kəsir qalır.

Sözün əsl mənasında ana dilinə yiyələnmədən dilin milli qüdrətini anlamaq olmaz. Bu qüdrəti anlamayanlar dilə gündəlik istifadə üçün cansız istehsal aləti kimi baxırlar.

Dünyanın bir sıra ölkələrində xalqlar hələ də öz ana dillərinin tam sahibi ola bilməmiş, ana dilində yazıb-yaratmaq, bəzən isə hətta bu dildə danışmaq iqtidarına malik deyillər.

Ana dili gözəldir, ülvidir, doğma, həm də müqəddəsdir. Lakin o, mücərrəd anlayış deyil. Bü-

tün dillər o dillərin sahibləri üçün ana dilidir.

Bəzi gənclərin öz ana dillərinə laqeydliyi şəxsi kəsir, şəxsi məhdudiyyət çərçivəsindən çıxır, belələri öz tarixinə, mədəniyyətinə adət-ənənəsinə biganə qalır, öz milli mənliyini itirir, yenisinə isə tam yiyələnə bilmir, ortada qalır, mənəvi cəhətdən naqis olur. Onlar, əslində, heç bir xalqa mənsub ola bilmirlər. Ona görə gənc nəslin bu cəhətdən də tərbiyəsi vacib vəzifələrdən sayılır.

Əgər birisi uşaqlıqdan ana dili aləmindən uzaq olubsa, başqa dil aləmində böyüyübsə, sonradan – 20-25 yaşlarından sonra onu ana dilini bilməyə çağırmağın əməli əhəmiyyəti olsa da, mənəvi əhəmiyyəti, demək olar ki, olmur.

Həyatda sınanmış bir həqiqəti yaddan çıxarmaq lazım deyil ki, ana dilinə, milli mədəniyyətinə, ədəbiyyatına, tarixinə biganə qalan, bunlara yuxarıdan baxan, hətta ana dilini bilməməklə öyünən adamlardan öz xalqı üçün əsl rəhbər işçi ola bilmir.

Ana dilini heç bir dillə müqayisə etmək olmur. Çünki ana dili lap körpəlikdən insanların ruhuna çilənir, beşik mahnıları ilə adamların canına, qanına hopur və ana kimi doğma, müqəddəs olur; ana nəfəsi körpəyə xoş gələn kimi, o da o dildə danı-

şanlara xoş gəlir. Ana dili beləcə müqəddəsləşir, öz daşıyıcılarının varlıq forması olaraq, nəsildən-nəslə yadigar qalır. Ona görə də elm və sənət adamlarının, ictimai xadimlərin ana dili haqqında dediklərinə təsadüf nəticəsi, gəlişi gözəl sözlər kimi baxmaq olmaz. Ana dilinin doğmalıq hərarəti, ruhu oynadan zümzüməsi – bütün varlığı bunu tələb edir.

Bu dil dözümlüdür, hər cür müqavimətə qarşı dura bilir, qalib gəlir. Qol gücünə, zorla bu dili dəyişdirmək, tarixin səhifələrindən silmək mümkün deyil. Azərbaycan dilini əsrlərin keşməkeşindən keçirib bu günə qovuşduran amillərdən biri də onun bu dözümü və sabitliyidir.

İkidillilik ana dilinin inkarı yolu ilə deyil, ana dilinin təsdiqi yolu ilə inkişaf edir.

Qaylardan süzülən sular getdiyi yolların mineralları ilə qarışaraq gözlə görünməyən gizli, qaranlıq dünyanın insana şəfa verən, min dərdin dərmanı olan nə varsa hamısını özü ilə gətirib insana bəxş etdiyi kimi, dilimiz də xalqımızın, atalarımızın, babalarımızın həyatından onların arzu və istəklərini, sevinclərini və kədərlərini, dərdlərini-ələmlərini öz canına, qanına yığaraq bizə gətirmişdir. Bu dildə yaranan, xalqımızın qəlbindən qopan, insanların mürəkkəb və səmimi daxili aləmlərinin əks-sədası olan bayatılar və

laylalar, qoşmalar və gəraylılar, atalar sözləri və lətifələr, dastanlar və nağıllar bizə nələr demir?! Onlarda xalqımızın məhəbbət dünyası da, qəhrəmanlıq tarixi də, ağlı-zəkası da, şirin gülüşü də, acı göz yaşı da var. Bu dil «Dədə Qorqud»un və «Koroğlunun» dilidir. Bu dil Həsənoğlunun və Nəsiminin, Xətainin və Füzulinin, Saibin və Qövsinin, Vaqifin və Nəbatinin, Zakirin və Seyid Əzimin, Abbasquluağanın və Mirzə Fətəlinin, Nərimanın və Mirzə Cəlilin, Sabirin və Hadinin, Cavidin və Cəfərin, Səmədin və Mirzənin dilidir; nə qədər qüdrətli sənət əsərinin dilidir. Bu dil öz xalqının əhatəsindən çıxaraq, neçə-neçə xalqın sevdiyi, toylarını, bayramlarını bu dilin ahəngindən doğan gözəl muğamlarla, aşıq qoşmaları ilə, xalq mahnıları ilə bəzədiyi dil olmuşdur. Tarix boyu bu dil təsir etmiş, başqa dillərin lüğətini öz gözəl söz və ifadələri ilə zənginləşdirmişdir. Bu dilin Qafqazdakı və ümumən, Asiyadakı mövqeyini fransız dilinin o dövr Avropasındakı mövqeyi ilə müqayisə edənlər, onu bu yerlərin beynəlxalq dili hesab edənlər də olmuşdur.

Xalq və dil anlayışı mücərrəd anlayış deyil; hər xalqın özünəməxsus ərazisi, yaşayış tərzi, mənəvi birliyi, etik və estetik görüşləri, tarixi, mədəniyyəti var; hər xalqın dilinin də özünəməxsus xüsusiyyətləri var, konkret bir dil konkret bir xalqın varlıq formalarından biridir. Buradan da xalqın dilinə - milli dilə - ana dilinə qayğı məsələsi meydana çıxır, onun inki-

şaf etdirilməsi, tədrisi problemləri daimi problemlər kimi qarşıda dayanır. Həm də bu problemlər bilavasitə ədəbiyyatla, bədii yaradıcılıqla bağlanır.

Böyük iftixar hissi ilə deməliyik ki, Azərbaycan dili dünyanın ən qədim, ən imkanlı dillərindəndir. Yüz illər boyu dilimiz öz qüdrətini ağır imtahanlardan keçirmişdir. Təsəvvür edin ki, xalqın siyasəti bir dildə, ilahiyyatı ayrı bir dildə, ədəbiyyatı üçüncü bir dildə idi. Lakin xalqın mədəniyyət dili – ana dili bu təzyiqlərə dözüb yaşamışdır. Belə bir ölümsüz dildə yazmaq yazıçının xoşbəxtliyidir.

Tarixin müxtəlif dövrlərində alimlər, sənətkarlar, səyyahlar Azərbaycan dilini, onun sözlərini özləri ilə çox-çox uzaqlara «apardıqları» kimi, Böyük vətən müharibəsinin vətəndən uzaq düşən qəhrəmanları ilə əlaqədar Azərbaycan sözləri, Azərbaycan adları dillərə düşmüş, dağlara-daşlara həkk olunmuşdur. Xalqımızın igid oğlu Mehdinin də adı bu adlar sırasında italyanlar üçün doğmalaşmışdır.

## *Ədəbi dil və bədii dil haqqında*

Yazıçıların dili ümumi mənada ədəbi dildir, konkret olaraq isə bədii dildir.

Ədəbi dil söz sənərkarlarının, alimlərin və digər yazarların qələmində formalaşır, ətə-qana dolur və inkişaf edir. Dəfələrlə deyilibdir ki, ədəbi dil tarixi görkəmli yazıçıların əsərlərinin dili əsasında işlənir; ədəbi dilin normallaşdırılmasında və inkişafında yazılı ədəbiyyatın rolunun böyüklüyü də dəfələrlə qeyd edilmişdir.

Bədii dil ədəbi dilin bəzəkli qoludur, həm də, əgər belə demək olarsa, ərköyün qoludur; o, ədəbi dilin qaydaları, qrammatik qanunları çərçivəsinə sığışmır, əl-qol atır, çalarlar tapır və ona görə də kənaraçıxma halları da olur, başqa sözlə desək, bədii dilin xüsusiyyətləri "səhv" etməyə də yol verir.

Bədii dil ədəbi dilin mənzərəsini əks etdirir.

Bədii dil ədəbi dilin ən aparıcı, müəyyənləşdirici qoludur, bədii dil ədəbi dilə ton verir, sənətindən, peşəsindən, savad dərəcəsindən asılı olmayaraq bir sahənin- bədii ədəbiyyatın dili olmaq etibarilə bu dil ədəbi tələffüz və yazıya təsir göstərir.

Sırf dilçilik tədqiqatlarında hiss, emosiya arxa plana keçir, ədəbiyyatla bağlı yazılarda isə onlar ağılı, düşüncəni müşayiət edirlər, hətta bəzən onları yoldan da çıxarırlar. Ədəbi məqalələrin yazılması prosesində emosiya tez-tez dəyişə bilər. Başlayanda bir hiss, son nöqtəni qoyanda başqa hiss keçirirsən. Ümumən, ədəbi aləmə düşmək, o aləmdə yaşamaq, o aləmdə yazıb-yaratmaq nə qədər cəzbedici, maraqlı olsa da, o qədər də ağırdır.

Bədii dil ümumxalq təfəkkürünün məhsulu olan və ümumxalq dili zəminində formalaşan idiomlara, ibarə və aforizmlərə, atalar sözü və zərb-məsəllərə geniş meydan açır, onlara qanad verir. Bir də görürsən ki, qədim dövrlərə məxsus olan, sonralar işləkdən düşən bəzi formalar bədii dildə baş qaldırır; bədii dil keçmişdən xəbər gətirir.

Dil və yazıçı daima yaradıcılıq mübadiləsində olur.

Yazıçı dilində özünü göstərən hər bir dəyişiklik, yenilik ümumi ədəbi dil hadisəsi ola bilir.

«Yazıçı və dil» problemi, ixtisasından asılı olmayaraq, daim ziyalıları düşündürmüş və düşündürməkdədir. Nə qədər ki, bədii yaradıcılıq var,

ədəbiyyat var, yazıçı var, filologiya elmi var, «yazıçı və dil» problemi də öz aktuallığı ilə qalacaqdır.

Ədəbi-bədii dilimizin xəlqi təbiəti də güclü olmuşdur, ümumxalq dilinə meyl, xalq ədəbiyyatı dülünə müraciətlər müntəzəm hal almışdır.

Güclü xəlqilik və bədiilik ədəbi dili xeyli yumşaldır, onu rəsmiyyətçilikdən xeyli ayırır.

## *Ədəbiyyat və ədəbi tənqid haqqında*

Azərbaycan ədəbiyyatı böyük xəzinədir, bu ədəbiyyatı yaradanlar arasında elə dahi sənətkarlar var ki, hər xalq onlardan yeni bir şey öyrənə bilər. Bu mənada Azərbaycan söz sənəti dünya mədəniyyətinin zənginləşməsində böyük rol oynaya bilər.

Azərbaycan ədəbi prosesi bütün ədəbi, fəlsəfi, ictimai, bəzən də siyasi məzmunu və mündəricəsi ilə bərabər , bir insani ədəbiyyatdır.

İnqilabdan əvvəl yaradıcılığa başlayan yaşlı nəslin nümayəndələri olmasaydı, 20-ci illərin birinci yarısında ədəbiyyatımızda boşluq əmələ gələ bilərdi. Yeni zəmanə öz bətnindən doğulacaq ədəbi qüvvələr üçün hamiləlik dövrü keçirərkən, əvvəlki nəslə ehtiyac var idi. Bu nəsildən olan şairlər yeni şeirimizin və şeir dilimizin inkişafında müəyyən rol oynadı. Onlar dil məsələlərinə də yeni dövrün tələbləri səviyyəsindən müdaxilə edib öz sözlərini dedilər və sosializm dövrünün qarşıya qoyduğu dil problemlərinin həllində iştirak etdilər. Lakin çox keçmədi, dövrün yeni yaradıcı qaranquşları görünməyə başladı; əvvəlcə tək-tək, az sonra isə bir-birinin ardınca mətbuat səhifələrində yeni-yeni imzalar oxundu. Onlar ədəbiyyata yeni həyat, yeni nəfəs gətirdilər. O vaxta qədər ağır addımlarla hərəkət edən ədəbiyya-

tımızı sakit axan dərin sulara bənzətsək, yeni qüvvələrin yaradıcılığını böyük coşqunluqla, səs sala-sala axan çaylarla müqayisə etmək olar.

Azərbaycan ədəbiyyatı ahu-zar ədəbiyyatı ola bilməz. Bu ədəbiyyatın qəmi də, kədəri də var, lakin o, həyat eşqi ilə yaşayır. Qoy gənclik, XXI əsrin yaradıcı Azərbaycan gəncliyi bu yolu intixab etsin.

Yazıçı haqqında söz demək adi haldır; sağlığında da, dünyasını dəyişəndən sonra da yazıçı haqqında yazılır. Alim haqqında, tənqidçi haqqında söz demək adət halını almamışdır, belə yazılar o qədər çox olmur. Ancaq olanda köklü olur, əsaslı olur. Görkəmli ədəbiyyatşünas və tənqidçi Məmməd Arif dünyasını dəyişəndə Məmməd Cəfər onun haqqında əsər yazdı. Məmməd Cəfər dünyasını dəyişəndə görkəmli alim Abbas Zamanov, daha geniş miqyasda isə İsa Həbibbəyli onun haqqında sözlərini dedilər. Bu, xüsusi elmdir, heç bir dərslikdə olmayan, heç bir məktəbdə tədris edilməyən bir fəndir; belə bir fənn, belə bir elm sahəsi yoxdur. Bu qədirşünaslıq elmidir ki, onun müəllifləri qədirşünaslar adlanır.

Bədii əsərin adı da özü kimi xüsusi yaradıcılıq işidir.

«Kitabi-**D**ədə **Q**orqud» ensiklopedik yaradıcı-

lıq faktıdır. Burada qədim bir xalqın həyatı ilə bağlı nə axtarsan, taparsan. Burada torpaq var, torpaq uğrunda ölən var; burada vətən var, vətən uğrunda mübarizə var; vətəndaşlıq düşüncəsi var, vətənpərvərlik hissi var.

«Kitabi-**D**ədə **Q**orqud» tərbiyə və əxlaq məktəbidir.

Ədəbi tənqid xüsusi bir yaradıcılıq formasıdır. O, tərif də edə bilər, nöqsanları da deyə bilər. Tənqid o zaman nüfuzlu olur ki, obyektiv olsun, elmi əsaslara malik olsun, ədəbi prosesi ümumiləşdirə bilsin.

Ədəbi tənqid təhlil deməkdir, bir növ elmi araşdırma deməkdir, yazıçının məqsədini oxucuya göstərmək deməkdir, bədii əsərin uğurunu, səviyyəsini, bu fonda onun çatışmayan tərəflərini tapmaq, bununla da müəllifə kömək etmək, ədəbiyyatın inkişafına yardım etmək deməkdir.

Ədəbi tənqid uğurları göstərməklə, nöqsanları da ciddi tənqid etməlidir; hər iki halda obyektivlik yeganə meyar olmalıdır; aludəçiliyə və qərəzə yol verilməməlidir.

Nəzərə almaq lazımdır ki, yaxşı əsər də, zəif əsər də ədəbi prosesin məhsuludur və hər sözün, hər

cümlənin arxasında canlı insan dayanır. Bu insan bizim dostumuz, yoldaşımızdır; ona salam veririk, onun salamını alırıq; onu gümrah, könlüxoş görmək istəyirik. Tənqiddən bu canlı, həyati, insani münasibətlərin rayihəsi gəlməlidir.

Hər hansı məsələ haqqında danışanda, tənqid və ya təhlil edəndə səhvlə istək və arzunu, elmi yanlışlıqla metodiki uyğunsuzluğu qarışdırmaq olmaz, deyimin tonuna fikir vermək lazım gəlir.

Ədəbi prosesə ədəbiyyatşünas və dilçi baxışı bir-birini təkrar etmir, bir-birini inkar da etmir, bir-birini tamamlayır.

## *Elm və tədris məsələləri haqqında*

Hərə öz bacardığı işin dalınca getsin, elmə isə ürəyində, qəlbində elmə meylli insan gəlsin.

Hansı sahədə olur olsun, istedad elmsiz, biliksiz parlaya bilməz. Nizaminin «Xəmsə»si qüdrətli sənət nümunəsi olmaqdan başqa, öz dövrünün elmi təfəkkürünü əks edən bilik xəzinəsidir və ona görə də 800 ildən çoxdur ki, yalnız ədəbiyyatşünaslığın deyil, müxtəlif elm sahələrinin tədqiqat obyekti kimi öyrənilir. Üzeyir bəyin «Leyli və Məcnun» dan «Koroğlu»ya qədər keçdiyi sənət yolu elmlə müşayiət olunmuşdur. Bülbül ona görə vokal sənətinin zirvəsinə qalxa bildi ki, əvəzsiz gözəl səsi və fitri istedadı ilə birlikdə, bu sənətin elmi əsaslarına da yiyələnmişdir.

Elmi dərəcə fəxri ad, orden, medal deyil; bu ada çatmaq üçün gərgin elm yollarını keçmək, elmi dərəcədən əvvəl elmi səviyyəyə çatmaq lazımdır.

Əsrlərin yaratdığı, elmin təsdiq etdiyi formaları dəyişdirmək yolu ilə irəli getmək, yenilik yaratmaq olmaz.

Dərsliklərin tərtibi olduqca böyük həssaslıq tələb edir. Şagird dərsliklə əqli pərvəriş tapır, dərsliklə

məlumatlanır, dərsliyə daha çox inanır. Dərslik tərtibində hər faktın, hər materialın, sözün geniş mənasında, tərbiyəvi anlamı diqqətlə nəzərdən keçirilməlidir.

Qrammatikasız da dil öyrənmək mümkündür. Lakin bu, dilin elmi əsaslar üzərində öyrənilməsi deyil və qrammatikasız öyrənilən dil adi, gündəlik ünsiyyət vasitəsindən irəli getmir, həmin dil zəngin, dövrün elmi-texniki tələblərinə cavab verən dil ola bilməz. Bununla birlikdə, qrammatikanın tədrisi canlı dildən təcrid edilməməlidir, onunla sıx bağlı olmalıdır.

Cəmiyyətin psixologiyası, əxlaqi-mənəvi aləmi onu təşkil edən insanların əsas qisminin tərbiyəsindən, davranışından, dünyagörüşündən, vətənə, xalqa münasibətindən və başqa çoxlu keyfiyyətlərindən asılıdır. Bu keyfiyyətlərin əsası, şüurlu əsası orta məktəbdə qoyulur.

Milli tədris sistemində təlim-tərbiyə də, müəllim-şagird münasibətləri də, davranış qaydaları da, məktəbin bəzəkləri də, divarlardakı yazılar da – hər şey, ilk baxışda o qədər də əhəmiyyətli görünməyən, lakin tədris işinin çox mühüm tərkib hissələrindən olan bu zahiri cəhətlər də Azərbaycana və azərbaycanlıya məxsus olmalıdır.

Millilik mənasında milli Azərbaycan məktəbləri qarşısında hansı tələblər qoyulursa, rus dilli Azərbaycan məktəblərində də həmin tələblər həyata keçirilməlidir.

Tədris işini milli əsaslar üzərində düzgün qurmayan xalq indiki dünyada həqiqi müstəqillik yolu ilə irəliləyə bilməz, milli kadr yetişdirə bilməz, həqiqi müstəqil siyasət yeridə bilməz!

Orta məktəbdə hər bir müəllim öz ixtiasını tədris etməklə bərabər, tədris etdiyi fəndən asılı olmayaraq, bir də «tərbiyə fənnini» tədris etməlidir.

Yaxşı müəllim şagirdə həyat dərsi də verir, onu haqsızlığa qarşı mübariz olmağa da alışdırmağa çalışır.

Müəllim ən təminatlı şəxslərdən olmalıdır.

Müəllimlik ən nüfuzlu, ən hörmətli peşədir. Əsil müəllim gərək öz nüfuzunu, şərəf və ləyaqətini həmişə uca tutsun, qorusun!

Əfsuslar olsun ki, bu gün müəllimlərimizin arasında elələri var ki, müəllimliyə layiq deyillər, alim-

lərin arasında da alimliyə layiq olmayanlar var. Bu da təhsilə ağır zərbə vurur.

İcbari orta təhsil siyasətindən əl çəkilməlidir. Təhsil məcburiyyət deyil, şərəf-şöhrət işi olmalıdır.

Bədii ədəbiyyatın tədrisi və mütaliəsi eyni zamanda dilin bütün çalarları və rəngləri ilə öyrənilməsi üçün əsas vasitədir. Ədəbiyyatı sevdirmək üçün onun gözəl, ifadəli, obrazlı dildə tədrisi də müəllimlərimiz qarşısında bir metodiki vəzifə kimi dayanır.

Öyrədənlərin özünün öyrənməsi, öyrədilməsi məsələsi qarşıya çıxır. Əgər məktəb müəllimi ədəbi dildə düzgün danışa bilmirsə, «ellikcə düzgün, ədəbi dildə danışmaq, dil ümumiliyini gözləmək asan olmayacaqdır».

Bu bir həqiqətdir ki, normalaşmış dilə yiyələnmək, ədəbi dildə düzgün danışan ziyalılar yetişdirmək işi məktəbdən başlanır. Burada olan hər bir dil, ifadə əyintisi uzun zaman davam edir, onu aradan qaldırmaq çətin olur. Bir sıra ziyalıların, hətta elmi dərəcələri olan, yüksək mövqe tutan bəzi ziyalıların dilində özünü göstərən anormallıq uşaqlıqdan qalmadır.

Məktəb xalqımızın çoxcəhətli zəngin tarixinin ən işıqlı cəhətlərini yeniyetmələrə aşılamalıdır; şagirdlər xalqımızın qəhrəmanlıq tarixi və qəhrəmanları ilə, elm tarixi və alimləri ilə, sənət tarixi və sənətkarları ilə, cahanşümul ədəbi və estetik sənət abidələri ilə tanış olmalıdır. Şagirdlərin beynində, təsəvvüründə öz xalqının – Azərbaycan xalqının böyüklüyü və istedadı, vətəninin – Azərbaycanın zənginliyi və gözəlliyi əks olunmalıdır.

Bakı Dövlət Universiteti xalqımızın düşünən beyni, elm, mədəniyyət, təhsil mərkəzidir. Universitet varlığının bütün dövrlərində ölkəmizin ictimai-siyasi həyatının barometri olmuşdur və indi də bu mövqeyini saxlayır.

Mən təhsilimizin, elmimizin sabahına inanıram, ruhdan düşmək lazım deyil, gələcəyə nikbin baxmaq lazımdır. Savadlı alimlərimiz, qeyrətli insanlarımız çoxdur. Bütün xalqımız təhsilin ikişafına kömək etməlidir.

Ən ağır sarsıntılar içində də üzümdə təbəssüm gəzdirmişəm ki, başqalarına xoş əhval-ruhiyyə bağışlayım, ürəyimdən isə daim bir daş asılıbdır.

Taleyin bəstələdiyi musiqini hələ notlara salan olmayıb.

Yaxşılıq etdiyim adamlardan pislik görməyəndə sevinmişəm.

Həyatın pozulmaz qanunları var: qədir bilənlərin qədirini bilirlər.

Hər şeyi vaxtında demək, vaxtında səs ucaltmaq nə qədər yaxşıdır.

Təbiətin möhkəm qanunauyğunluqları ilə yanaşı, istisnaları da, təsadüfləri də çoxdur. Ata-ananın övladdan əvvəl öz dünyalarını dəyişməsi bir qaydadır. Belə olmasaydı, bəşər məhv olardı. Lakin bunun da vaxtı var. 40-50 və daha yuxarı yaşlarda övlad yetim qalmır, elə bir zaman gəlir ki, valideynin vəfatı, elə bil ki, zəruriləşir, övlad psixoloji cəhətdən buna hazır olur və bu halda ölümün təsiri nisbətən azalır. Uşaq vaxtlarında isə ata-ana itirmək tamam başqa bir dərddir və o dövrdə qırılan könül çətin düzəlir.

İnsan dünyaya bir dəfə gəlir. Gəlir, az-çox yaşayır və heçliyə çəkilir. Bu hamı üçündür. Burada istisna yoxdur. Bu elə bir təbii qanundur ki, ona düzəliş vermək, istiqamətini dəyişmək mümkün deyil.

İnsan dünyaya gəlir, böyüyür, qocalır, ömrün hansı çağındasa ruhlar aləminə qayıdır. Bu, həyatın dinamikasıdır, rəngləridir, yeni həyatın özüdür.

İnsan yaşamaq istəyir. Bütün canlılar yaşamaq istəyir. Zəif otlar, güllər, çiçəklər yaşamaq eşqi ilə sərt daşları, yolların asfalt örtüyünü deşib baş qaldırırlar.

Günlər, aylar, illər bir-birini qova-qova insanı ömrün zirvəsinə qaldırır, sonra isə asta-asta endirib sakit bir axına salır. Mənalı ömrün, qurub-yaradan insanın, duyub-düşünən kəslərin zaman və məkan etibarilə zirvə yolu da, enişi də, sakit həyat axarı da zəngin və dolğun olur.

İllər də dövrün sürətinə qoşulub bir-birini ötür, bizi göz açmağa qoymur.

Dünya bütün nəsillərin həyat yolunda daimi bir mehmanxana timsalındadır. Ancaq orda bir dəfə yaşamaq olar.

Dünya bizi yaşadır, havası ilə, suyu ilə, gecəsi-gündüzü ilə yaşadır; çörəyi ilə yaşadır. Biz isə qonaq kimi gəlir və gedirik. Sonra da dünyaya qarğıyırıq, ona vəfasız deyirik.

Ölüm adlı yenilməz qüvvə ilə insanın həyat eşqi qarşılaşdırılır.

Təmiz ürək, həyata fəal müdaxilə, insana xidmət, ənənəyə hörmət, yaxşı əsli-kökə bağlılıq, bir də sözün böyük və geniş mənasında eşq-məhəbbət, adamı qocalmağa qoymur.

Təbiət çox mükəmməl yaranıbdır: hər şey öz yerində, hər şey qanunauyğun. İnsan idrakına sığmayan sonsuzluqlar, kainatın günəşi, ayı, ulduzları; istisi, soyuğu; qarı, yağışı; çayı, dənizi; dağı, düzü; suyu, havası; yazı, yayı, payızı, qışı; canlı və cansızlar aləmi; cazibə və dartılma qüvvələri....Təbiətin min bir möcüzəsi. Heç nə artıq deyil, heç nə əskik deyil. Hər şey hərəkətdə, dəyişmədə, inkişafda.

Həyat hiyləgər və məkrlidir.

Həyat və ölüm yolu ayrılmazdır, paralel xətlər üstündədir. Hər ikisi eyni zamanda başladığı kimi, eyni zamanda da sona çatır.

Axirət, ruhlar aləmi nə qədər tariflənsə də, insan bu dünyada ömür sürmək istəyir. Biri dünyasını dəyişəndə kədərlənirik, ağlayırıq; ailələrdə vay-şüvən qopur. İnsan yaşamaq istəyir.

İlkini məlum olmayan, yaşı bilinməyən bu dünya – bu ulu dünya bizim məskənimizdir.

Ey dünya, nə qədər təzadların var, nə qədər qəribəliklərin var. İnsana əvvəlcə qol-qanad, möhkəm vücud, güc-qüvvət, atılıb-düşmək həvəsi verirsən, zəkanı, müdrikliyi, təmkini sonraya saxlayırsan, bunları verəndə birinciləri alırsan.

Tələsirəm. Tələsirəm ki, kitablarda, kitabxanalarda, evlərdə izlərim qalsın, kitab rəflərində üstündə adım yazılmış kitablarım görünsün, yad edilim, xatırlanım.

Mənim də ömür günəşim zirvəsini aşıb qüruba doğru gedir. Ancaq vətənimin, xalqımın həyatında hər hansı bir milli dirçəlişi, özünə, kökünə qayıdışı görəndə, şairin dili ilə demək istəyirəm ki, «Ömrün kitabını tamamlamağa, çox da can atmasın əlimdə qələm».

## *Şairlər və poeziya haqqında*

Şair həssaslığı, şair duyğusu aliliyi, yüksəkliyi, saflığı və müqəddəsliyi ilə səciyyələnir. Duyub düşünmək qabiliyyəti ümumən insanlığa xasdır; şair olmayıb şair qədər həssas olan «sıravi» adamlar da az deyil. Şeir yazmayıb mənən, daxilən şair olanların sayı şeir yazanlardan, bəlkə də çoxdur. Ancaq burada xüsusi bir keyfiyyət insana, sözün əsil mənasında, şairlik hüququ verir. Şairlər başqalarından fərqli olaraq, öz duyğu və düşüncələrini yüksək poeziya dili ilə ifadə edə bilirlər. Xarici aləmdən alınan hissi-psixoloji təsir şairin daxili aləminə qapanıb qalmır; o, şair qüdrəti ilə yeni qüvvə alıb digər insanlara yönəldilir; insanlar öz əhatələrində birbaşa duya bilmədiklərini şair qüdrəti ilə qəbul edirlər. Beləliklə, şair, həyatı – təbiəti və cəmiyyəti, hadisələri bir fərd kimi yalnız özü üçün deyil, onu əhatə edənlər üçün də alır və ona yeni forma, yeni dil, yeni güc verib ifadə edir.

Şair, insanın özünü də özünə anladır və tanıdır; şair öz əsrdaşının daxili aləmini açıb onu özünə göstərir.

İnanmıram ki, bu dünyada əsil şair daxilən nikbin olsun. Yox, şair nikbin ola bilməz! Əsil şair nikbin ola bilməz!

Əsərlərini sətir-sətir nəzərdən keçirdiyimiz Azərbaycan şairləri yaradıcılıq yollarında nə qədər sevinib, ya kədərlənibsə, nə qədər xoş anlar keçirib, ya həyəcanlanıbsa, bu dövrdə həmin hisslər bizim üçün də doğma olub, beynimizə, qəlbimizə təsir göstəribdir.

Haqqında danışdığımız şairlərin yaradıcılığında vətən geniş, çoxçalarlı məzmunu ilə əks olunur. Biz buradan bircə yarpaq ayırırıq. O yarpağın üzərində söz və dil kəlmələri yazılmışdır.

Bizi riqqətə gətirən anlar çox olubdur. Elə anlar olub ki, sənətin izaha gəlməyən böyük qüdrəti, şair kəşfi qarşısında donub qalmış, ürək döyüntüləri ilə gələn həyəcanlarımızın ötməsini gözləmişik və həmişə bir sual qarşısında qalmışıq ki, şairlər bütün yaradıcılıq boyu onları müşayiət edən bu təsir və həyəcanlara necə dözürlər?

İnsanla nəfəs alan, insanı sevən, onunla fərəhlənən, onunla kədərlənən şair.

Qəm-kədər əsl şairə və şairliyə məxsus haldır.

Xalqımızın sülh arzularını ifadə edən şairlərimiz müharibə ilə bağlı olan sözləri lüğətlərdən silib

unutmağı, əmin-amanlığa, məhəbbətə aid sözləri isə böyük hərflərlə yazmağı təklif edirlər.

Söz arxasınca uçuş şeir üçün sözlər seçib, onları misralara düzməklə də məhdudlaşmır. Sözə qayğı, ana dilinə məhəbbət, sözün və dilin şəhdini – şirəsini, qüvvətini, qüdrətini duymaq bu uçuşun üfüqlərini genişləndirir, mənasını, məzmununu artırır.

Həyatdan gələn, obyektiv həyatın poetik ifadəsi olan şeir həyat fəlsəfəsi ilə yüklənir və bununla da mənalı, məzmunlu olur, uzun ömürlü olur. Hikmətlərlə dolu olan şeir daima yaşayır, oxunur, öyrənilir. Bəşər yaşadıqca Nizami, Füzuli, Cavid sənəti də yaşayacaqdır.

Həqiqi poeziya və fəlsəfə insan xəyalının və insan təfəkkürünün şərikli məhsuludur.

Klassik Azərbaycan poeziyasına romantik ədəbiyyat kimi baxıb, pomantika dumanları altındakı reallığı və ya realizmi görməmişik və ya görə bilməmişik. Xaqani şeirində də , Nəsimi, Füzuli şeirlərində də çox güclü realist damar, daha dəqiq desək, realist əsas var. Bu realizmin maarifçi çaları da, tənqidçi çaları da, hətta bir qədər irəli getsək, inqilabi üsyankar çaları da var. Klassik şeirin üzərindəki romantika pərdəsini qaldırıb onun cövhərinə baxmaq lazım gəlir.

Poeziya nə qədər böyük və gözəl olsa da, öz qidasını sözdən alır, sözün məna çalarları, sözün sözə min cür təması ilə yaranır; poeziya sözün poeziyası kimi yetişir, sözlə yüksəlir.

Azərbaycan poeziyası o qədər əzəmətli, o qədər möhtəşəm, o qədər mənalı, o qədər qüdrətlidir ki, bu poeziyada parlamaq, öz şəxsi nəfsinlə nəfəs almaq çox çətindir. Bu poeziyanın yolu nə qədər enişli-yoxuşlu olsa da, bəzən zirvələrə yüksəlsə də, adi axarı ilə getsə də, heç vaxt yerlərdə sürünməmişdir.

Böyük Azərbaycan poeziyası daima dərd yüklü olmuşdur. Bayatılarımız qan ağlamışdır. Yazılı şeirimiz muğamatımız kimi, qəm-kədər üstə köklənmişdir.

Bayatını oxuyanda istəyirsən ki, ona nəfəsin dəyməsin, sola bilər. Bayatı ilahi bir qüdrətin tövhəsi kimi dünyaya gəlir.

Bayatı yazmaq çətin olduğu kimi, bayatı haqqında söz demək də çətindir. Gərək sənin sözün bayatıya layiq olsun, əks halda bayatının könlünə toxuna bilərsən, o, səndən inciyər.

Bayatı xalq yaradıcılığının, ümumən, şeirin ən zərif, ən incə nümunələrindəndir. Bayatı qızılgül kimi bir şeydir ki, onun ləçəklərinə – sözlərinə, misralarına əl vurmaq istəmirsən. Bayatı ilahi bir qüdrətin töhfəsi kimi dünyaya gəlir. Bayatı ürəyə dolur, yaradanın varlığına hakim kəsilir, onu rahat buraxmır, yuxuya girir, gecələr insanı oyadır ki, dur, məni kağıza həkk elə, yaddan çıxaram. Bayatı ildırım kimi çaxıb gedir.

*Sənət və sənətkar haqqında*

Aşıq sənəti, əslində, bir fərdin yaratdığı teatrdır.

Muğam vokal sənətində ağır artilleriya nisbətindədir. Muğam şitlik sevmir, muğam güldürə bilmir, o, düşündürür, ağladır.

Elə əsərlər, elə ifa tərzi var ki, xalqa məxsusdur, tarixin dolanbac yollarından keçib, təkmilləşib, büllurlaşaraq zəmanəmizə gəlib çıxıbdır. Belələri sənin, mənim deyil, xalqındır. Hər sənətçi bacarığı səviyyəsində ondan istifadə edir.

Muğamat elə bir sənət növüdür ki, onun qabağını kəsmək qeyri-mümkündür. Muğamat saflığına və əzəmətinə görə dağ şəlalələrinə, gücünə, qüdrətinə görə coşğun sellərə bənzər. Daimiliyinə görə isə muğamı bunların heç biri ilə müqayisə etmək olmaz, xalq-muğam qoşa yaşayır, qoşa ömür sürür.

Muğamatımız Azərbaycan musiqisinin şah əsəridir.

Qoy şeir kitablarının adları oxucunu həyata səsləsin, sevinc, fərəh bəxş etsin; ən vacibi isə, əsərin məzmunu ilə, ideyası ilə möhkəm bağlı olsun.

Sənətkar, adın estetik cəhətinə də, məna tutumuna da, metodoloji təsirinə də diqqət yetirməlidir.

«Sənsiz»in Nizami sözləri, Üzeyir musiqisi, Bülbül ifası birləşərək misli-bərabəri olmayan bir sənət möcüzəsi əmələ gəlmişdir.

Ağlamaqla gülmək bir-birinin əksi deyil. Bir-birini tamamlayan ülvi keyfiyyətlərdir. Ağlamaq gülməkdən daha böyük keyfiyyətdir. Ancaq gərək dünyadan, insandan küsüb ağlamayasan, kiçik hisslərlə ağlamayasan. Heyrətdən ağlayasan, sevincdən ağlayasan, sənətin ecazından ağlayasan. «Leyli və Məcnun»a baxanda ağlayasan, «Sənsiz»i oxuyanda ağlayasan.

Yazıçının fikir və xəyal dünyası darısqal olanda, bu mənada oxucusuna yeni söz deyə bilməyəndə o, zahiri effekt yaratmağa çalışır, fikir yoxsulluğunu söz oyunu ilə pərdələməyə can atır.

Sənətkar ana dilini bir də xalq ədəbiyyatından öyrənir; bu ədəbiyyat vasitəsilə onun rəngarəng ifadə imkanlarını, onun nələrə qadir olduğunu müəyyən edir. Çünki folklor ana dilinin əks-sədasına çevrilir. Xalq ədəbiyyatı həm də ana dilini durğun şəkildə, bir rəsm kimi əks etdirmir; onu hərəkətdə, fəaliyyətdə göstərir.

Söz dalınca qaçış, söz oyununa valehlik, "yeni söz düzəltmək" azarı bir sıra gənc nasirlərin, bir sənətkar kimi, inkişafını ləngidir, onların əsərlərində "həddindən artıq söz çoxluğu həddindən ziyadə obraz və fikir kasadlığı" yaradır.

Sənət sahibi intellekti, mədəniyyəti, orijinallığı ilə etiraf olunmalıdır.

## *Tarix, demokratiya, ədalət haqqında*

Tarix bütün döngələri və dönümləri ilə, təkamülü və təbəddülatı ilə, əl çatmaz, ün yetməz qədimlərdən indiyə kimi, zəncirvari bir xətt üzrə uzanaraq hər şeyi sahmanlayır, düzü də, əyrini də; haqqı da, nahaqqı da bir güzgü kimi özündə əks edir, üz-üzə qoyur, vuruşdurur, ayırır, sonra da uzana-uzana haqqın, ədalətin qələbəsinə yol açır.

Tarix qəddarlığı ilə çox mütəfəkkirləri sınaqlara çəkibdir.

Bəşər tarixinin – insanlıq tarixinin bir qolu olan Azərbaycan tarixində - Azərbaycan xalqının tarixində nə qədər işıqlı və qaranlıq dövrlər olsa da, bu tarix nə qədər çətin yollardan keçsə də, bütövlükdə yüksəliş xətti ilə getmiş, dahi şairləri, alimləri, memarları, musiqi xadimləri, qəhrəmanları, dövlət xadimləri ilə zəngin olmuşdur. Bu tarix zaman-zaman azadlıq da dadmış, məhrumiyyətlər də görmüşdür.

Demokratiya, qəribə də olsa, deməliyəm ki, dəmir intizam deməkdir, özbaşınalığın cilovlanması deməkdir. Əsl demokratiya insan demokratizmi ilə dövlət demokratizminin bir-birini tamamlamasıdır.

Tənqidi söyüşə çevirmək, tənqid əvəzinə təhqir demək demokratiya  deyil.

Azərbaycan xalqının tarixində bir üzü qara, bir üzü qızılı rəngli doxsanıncı il. Qara! Ona gorə ki, xalqımızın mərd oğul və qızları vəhşilərin gülləsinə nişangah oldu. Tarix , Azərbaycan tarixi buna bənzər hadisələrlə çox üzləşibdir. Qırılmışıq. Yenə göyərmişik. Kökü tarixlərin dərinliklərinə işləmiş, dünya mədəniyyətinə və elminə dahilər bəxş etmiş bir milləti məhv etmək mümkün deyil. 90-cı ilin bir üzü ona görə qaradır ki,bu qırğınlar bizim öz satqınlarımızın əli ilə törədilmişdir. 90-cı ilin bir üzü ona görə qızılıdır ki, Azərbaycan xalqının həm də dözüm gəhrəmanlığını nümayiş etdirdi.

O zaman ki, ordular üz-üzə gəlir, havadan qan qoxusu duyulur, o vaxt idraka ümid bəslənilir.

Xalqın rəhbəri, başçısı olmasa,xalq, xalq kimi təşkil oluna bilməz.

Həqiqət insan üçün ali hiss olub onu yüksəldir.

## *İstedad və istedadsızlıq haqqında*

Böyük istedadlar ilk gənclik illərindən öz gələcəklərinə inanmışlar, hərəkətləri ilə, sözləri ilə bəzən lap uşaq vaxtlarından bunu hiss etdirmişlər.

İstedadlar özləri özlərini görməyi bacarırlar, özlərinin zəif və qüvvətli anlarını hiss edirlər; təkcə görmək və hiss etmək deyil, həm də etiraf edə bilirlər.

Söz oyunu əsl yazıçıya yabançıdır. Məlumdur ki, o, adətən, istedadsızlara lazım olur.

İstedad nə qədər böyük olsa da, elmsiz, mütaliəsiz olsa, haradasa zəifləyəcək, daşa toxunacaqdır.

Azərbaycan xalqının hər sahədə zirvələri var. Xalq təbiətən istedadlı olanda, Allah ona daha çox istedadlar verir.

Öz səviyyəsizliyini bilməyən adamlar həyatda ən dəhşətli adamlardır.

Yazıçının fikir və xəyal dünyası darısqal olan-da, bu mənada oxucusuna yeni söz deyə bilməyəndə

o, zahiri effekt yaratmağa çalışır, fikir yoxsulluğunu söz oyunu ilə pərdələməyə can atır.

Paxıllıq istedadsızlığın doğma qardaşıdır.

## *Ürək, məhəbbət və xoşbəxtlik haqqında*

Ürək əsil həyat çeşməsidir.

Ürək və dil birliyi həqiqətin açarıdır.

Zaman keçir, duyğular şeirə dönür, ürək isə boşalmır.

Ürək can içində candır.

İnsan ürəyi həmişə bir həmdəmə möhtacdır. Elə bil, ürəkdə bir başqa adam üçün bəzəkli otaq var – boş otaq. Kimsə ora sahib olmalıdır. Ora ata-ana, bacı-qardaş, oğul-uşaq üçün deyil. Ora məhəbbət otağıdır. Ora insanın xoşbəxtlik, eyni zamanda, bədbəxtlik otağıdır. Sevinc, fərəh, həm də qəm, kədər otağıdır. Müəyyən yaş həddində o otağın qapısı açılırsa, kimsə orada mənəvi yurd salmağa layiq olursa, şəxsi xoşbəxtlik də oradan başlanır. Bu halda iki ürək birləşir, hər ikisində eyni iki sakin qərar tutur. Belə birlik ömürlərinin sonuna qədər davam edir. Bu, mənəvi və fiziki bitkinliklə meydana gəlib davam edirsə, şəxsi xoşbəxtlik zirvəyə qalxır. Evlənmək, bir ailədə ər-arvad kimi həyat sürmək, həm də çox hörmət və izzətlə davranmaq hələ bu aləmə daxil olmaq demək deyil. Ola bilər ki, bir-birinin bütün istək və arzularına böyük hörmətlə

yanaşan iki nəfər gecə-gündüz yanaşı olduqları halda özlərini tənha hiss etsinlər, ürəkləri boş qalsın. Ola da bilər ki, bir-birini dərin məhəbbətlə sevən, bir-birindən uzaq olub görüşmək ehtimalı az olan adamlar bir-birinin ürəyində olsunlar, özlərini bir-birinin yanında hiss etsinlər və daima görüşmək arzusu ilə yansınlar. Belələri öz məhəbbətlərini od-dan-alovdan keçirir, qəlbində onu qoruyub saxlayır, onunla yaşayırlar. O da insanı qoruyur, həm mənəvi sarsıntılardan, həm də fiziki, bioloji təsirlərdən qoruyur. O, insana qüvvə verir, insanı şux saxlayır, insana həyat eşqi verir, xəstələnməyə qoymur, insa-nın ömrünü uzadır. Belə ürəklə, belə məhəbbətlə qovuşanlar ömür yollarını qoşa gedirlər, qoşa döv-ran sürüb qoşa qarıyırlar. Son mənzilə də bərabər köçürlər, araları çox çəkmir.

Ürəyin məhəbbət guşəsi boş qalanda, nəinki qəm, kədər, hətta xəstəliklər üst-üstə tökülür, insanı əzir, sarsıdır.

Əsl məhəbbət unudulmur, bir xoş təəssüratla ürəklərdə yurd salıb yaşayır.

Psixoloji sarsıntılar zaman-zaman zehnimin kəsərini, yaddaşımı zəiflədibdir. İşləyə bilmədiyim vaxtlar da çox olubdur. Ancaq oxumaq, yazmaq həvəsindən düşməmişəm, nə isə bir iş görmək,

cəmiyyətə, ya kiməsə bir xeyir vermək arzusu məni heç vaxt tərk etməyib və bunlar məni həyata səsləyibdir. Bir də ürəyim mənə həyan olubdur. Allah məndən çox şeyi əsirgəyibdir. Hər mənzilə daşlı-kəsəkli yollarla getmişəm. Ancaq bunların əvəzində Allah mənə sevməyi də, nifrət etməyi də bacaran bir ürək veribdir. Hər cür hiylədən, məkrdən uzaq bir ürək. İnsanlara xidmət eşqi ilə döyünən bir ürək. Nadan sözünü vecinə almayan, dostun adi laqeydliyindən sınan bir ürək. Hər kəsə inanan, onun üçün də tez-tez aldanan bir ürək.

Arzu ilə real imkan arasındakı ziddiyyət ürəyə kədər gətirir.

Ürəyin dərdi əbədi boşluqla qurtarmır, o buna dözə bilir, lakin hiyləyə, yalana dözə bilmir.

Ürək çox incə, zərif və həssasdır. Adi ehtiyatsızlıqdan sına bilər.

Ürək təmiz olduğuna görə, müqəddəs olduğuna görə tez aldanır. Bəzən o qədər inanır ki, ağılın da sözünə baxmır. Hiyləni anlayandan sonra isə heç vaxt özünə gələ bilmir. Belə hallar çox olur. Biri yüz min dillə, yüz min aldadıcı görkəmlə ürəyin bircə dənə olan məhəbbət qapısından içəri girir, orada bir qədər əylənəndən sonra öz əsl sifətini büruzə verir.

Ürək qəm dəryasına düşür. Bu, izaha gəlməyən faciədir. Ürək partlamaq dərəcəsinə gəlir. İnsan həyatdan küsür, bədbinləşir, heç kəsə, heç nəyə inamı qalmır. Şübhələr, tərəddüdlər onu sıxır. Bəzi dəmir iradəlilər buna dözə bilir. Bəzisi iradəsini itirir, əsəb xəstəliyinə tutulur. Bəziləri fəal mənəvi həyatdan üz döndərib öz tənhalığına qapanır. Qəribə psixoloji hallar keçirir. Heç birində fərəh olmur, gülüşündə də kədər görünür. Bəzisi sükuta qapılır, dinmir, danışmır, gülmür, hətta ağlamır da. Bəzisi daima göz yaşı tökür.

İnsanın bütün daxili orqanları insanı yaşadır, lakin bunların heç biri, hətta materiyanın ən kamil və yüksək məhsulu olan beynin özü də bədii təfəkkürün obyektinə çevrilməmişdir, ürəkdən başqa.

İlk məhəbbət, nəticəsindən asılı olmayaraq, qəlbin dərinliklərində özünə yer edir və insan ömrünün sonuna qədər orada daimi yurd salır, sonrakı məhəbbəti o dərinliyə buraxmır. Sonrakı məhəbbət nə qədər qüvvətli olsa da, bu müqaviməti qıra bilmir. İlk məhəbbət zəif və ya qüvvətli halda zaman-zaman baş qaldırır, yuxulara girir, xısın-xısın ağladır, sevinc də, kədər də gətirir.

Gənclikdə başlanan həqiqi məhəbbət heç vaxt ölmür. Ona görə də «ilk məhəbbət» kateqoriyası var.

İlk məhəbbət həm də çox qəddar olur. Əgər baş tutmayırsa, sözün həqiqi mənasında, bir kəsi sevməyə, ürəkdən sevməyə imkan vermir.

Həqiqi məhəbbət insanları həm də əqidə və mübarizə yolçusuna çevirir.

Əgər başqasının qəlbində kiçik də olsa, bir işıq yandırmaq imkanınız varsa, onu əsirgəməyin. Başqalarının arzusuna adi bir xoş cavab sizin özünüzün xoşbəxtliyinə əsas ola bilər.

Xoşbəxtliyin zahiri əlamətləri çoxdur: var-dövlət, mövqe, vəzifə... Bunlar öz-özlüyündə xoşbəxtlik üçün həlledici faktorlar deyil. Ürək sakit olmayınca, ürək öz həmdəmini tapmayınca, qızıl-gümüşlə, ləl-cəvahirlə bəzədilmiş saraylarda belə özünü tənha hiss edəcəksən. Məhəbbət uğrunda şah saraylarını tərk edən, kasıb komaları həmin saraylardan üstün tutan qızlar, oğlanlar ədəbi qəhrəmanlara çevrilib yaşamışlar.

## *Vətən haqqında*

Bəli, analar beşik başında oxuduqları laylaları ilə ana dilimizin vəhdətini bizə içirmiş, vətən doğmalığını ruhumuza çiləmişlər. Bəlkə də, elə bu, qəlbimizdə vətənimizin ilk başlanğıcı kimi izlər salmışdır.

Çoxları vətəndən ayrı düşəndə vətən həsrəti ilə yanıb-yaxılır. Bir çoxları da elə vətəndə ola-ola, vətənin ağır dərdini çəkməli olur. Həm də insan mənən böyük olduqca onun vətən dərdi də böyük olur.

Vətən ancaq ərazi mənasında deyil. Belə təsəvvür vətən anlayışını sönükləşdirər, cansız bir əşya səviyyəsinə endirərdi. Vətən həm də, bəlkə, daha çox insanları ilə, dili ilə, şeiri-sənəti, nəğmələri ilə vətəndir.

Vətənin taleyi ilə xalqın taleyi bir-birindən ayrı deyil. Azadlıq da, məhrumiyyət də, xoşbəxtlik də, fəlakət də, sevinc də, kədər də hər ikisinin başına eyni qaydada gəlir.

Vətəni azad olmayan xalqın da azadlığı ola bilməz və əksinə, məhkum vətəndə insan azadlığından söhbət gedə bilməz; vətəndən kənarda azadlıq xoşbəxtliyi yoxdur.

Vətən, hər şeydən əvvəl, insanları ilə, xalqı, millətı ilə vətəndir.

Vətən sevdası cansız silaha da güc verir.

Torpaq torpaqdır, nə qədər gözəl olsa da, elə belə torpaqdır. Üstündə insan yaşamırsa, o, vətən deyil.

Əslində, 20 yanvar 28 aprelin davamı və son akkordudur.

## *Ailə, qadın haqqında*

Ailə cəmiyyətə ton verir.

Ailə tərbiyəsi cəmiyyətin bütün həyat səviyyələrinə təsir edir. Burada ana nəfəsinin həlledici rolu var.

Ailə cəmiyyət içində kiçik cəmiyyətdir.

Ataya əsil oğul olmaq hər oğulun hünəri deyil.

Kişilərlə bərabər gecə-gündüz zavod və fabriklərdə, kolxoz və sovxozlarda çox ağır peşələrdə çalışan qadınların çoxu, yəqin ki, mətbəx poeziyasının həsrətini çəkirlər.

## *İnsan haqqında*

Təbiətin ən ulu möcüzəsi insandır.

Bəxtsiz, talesiz adamların çoxu özlərindən artıq başqaları haqqında düşünür, başqalarının halına yanırlar, başqalarını xoşbəxt görəndə rahat olurlar.

İnsanlığın əsas keyfiyyətlərindən biri onun daima yeniliyə can atmasıdır.

Konkret insanlar haqqında söhbətlər öz yerində, bir də təsəvvürümüzdə heç bir dinə, irqə, silkə ... mənsub olmayan insan var. Adam övladı – insan. Şüuru və dili ilə bütün canlı aləmdən ayrılan, özü var olub, varlığı təsdiq edən insan. ... O xilqət ki, həyatın nəşəsi də, kədəri də onunla ölçülür; həyat və ölüm anlayışları da onun varlığı ilə müəyyənləşir. Bu insan Nəsimi şeirində «Ən əl-Həqq» (mən Haqqam) deyib özünü təsdiq edir və həm də özünü yaranışın mərkəzinə qoyur. Burada «mən (yəni insan) varamsa, hər çey var, mən yoxamsa, heç nə yoxdur» fəlsəfi düşüncəsinin iyi gəlir. Subyektiv idealizm adlanan və materialistlər tərəfindən ciddi tənqidə məruz qalan bu ideya, heç də varlığı inkar etmək mənasında deyildir. Bu, insanı uca tutmaq düşüncəsindən irəli gəlirdi. Bu fəlsəfi mövqedə poetik çalar var, insani

hiss və duyğu var, «insan olmasa, dünya nəyə lazımdır?» fikri var.

İnsan öyrənir, hamı öyrənir. Çoban da, alim də, evdar qadın da, nazir də. Eşıdır-öyrənir, görür-öyrənir... Yağışın və qarın yağmasından, küləkdən, axar sulardan, meşədən, çöldən, çəməndən, dənizdən, dağdan, təbiətin  hər dönüşündən, canlılar və cansızlar aləmindən öyrənir.

Əsil insan bütün həyatı boyu, islamın müqəddəs kitabı Quranda deyildiyi kimi, beşikdən qəbir evinə qədər öyrənir, elm öyrənir.  Bu, rəsmi tədris mənasında deyil. Bu, həm də məktəb qurtarmaq, sonra da beş ildən bir, ay və ya bir il təkmilləşmə kursu keçmək mənasında deyil, həm də bu təkcə savadlılar üçün də deyil. İnsan hər saat, hər gün öyrənir.

Torpaqdan və göydən gələn insan  yenə də öz yerinə - haradan gəlmişdisə, oraya da qayıdır.

Düşünə bilən insan daima dərd yüklü olur.

İnsan yaşlaşdıqca kövrək olur, xəyal aləmi onu çox uzaqlara çəkib aparır.

Duyan-düşünən insanlar dünyanın dərdini çəkirlər.

Ad-mərtəbə, iqtisadi vəziyyət nə qədər yüksək olur olsun, əsil insan xəyallardan xali olmur, onun üçün ilkin palçıq koma, bir parça yavan çörək, ayaqlarına batmış tikanlar... hər şeydən əziz olur. Və "insan bütün ömrü boyu bu ilk təəssüratı unutmur".

İnsanı fənalıqlara sürükləyən bəlaların ən qorxulusu şübhədir.

Sevilməyən insanda daha çox mənfi cəhətlər gözə görünür.

Mən o insanları sevirəm, o insanlara hörmət qoyuram, o insanları əsil insan hesab edirəm ki, onlar təkcə ağılın, beynin hökmü ilə yaşamırlar; həm də ürəyin, qəlbin döyüntülərinə qulaq asırlar. Ağıl insana yol göstərir, insana istiqamət və ciddiyyət verir; ağıl insanın varlığını müəyyənləşdirir, onun cəmiyyətdəki mövqeyini formalaşdırır. Bununla belə, ağılın ürəklə təması, ittifaqı olmasa, insan tənhalaşar, onun başqaları ilə ünsiyyəti olmaz, insan quru bir varlığa çevrilər, onun sözün əsil mənasında, dostu, yoldaşı, ürək sirdaşı olmaz. Beləəri insan taleyinə biganə olar, yaxşının, yamanın təsirini hiss etməz, ümumən, çox şey itirər.

İçində ağlayıb, üzdə gülən insanlar əsil insanlardır.

Fikir və xəyal dünyası, elmi və obrazlı təfəkkürü qoşa addımlayan şəxslər qocalmır.

Axı, «dünya yaxşı adamlar üzərində qərar tutur. Onların cazibə qüvvəsi saxlayır yeri, göyü...». Bu yaxşı adamlardan biri dünyamızdan qopub düşsə, nisbətən pozula bilər. İtirə bilərik bir-birimizi. Sıldırımdan uçan qayalar kimi toqquşub xırdalanaraq görünməz toz dənələrinə çevrilərik... Yox olarıq günlərin bir günündə. Bax, insanın insana, insanın xalqa və cəmiyyətə münasibətini bu ideal müəyyən edir. Müəyyən edir və tənzimləyir.

Ağsaqqal rəsmi titul deyil, o, əmrlə, qərarla verilmir. Ancaq insanlıq məqamında ondan yüksək titul yoxdur. İnsan bu adı özü qazanır. Burada yaş müəyyən rol oynasa da, həlledici deyil. Yaşla bərabər, insanın düşüncəsi, əqli-zəkası, ərkanı, təmizliyi, səmimiliyi və s. keyfiyyətləri əsas rol oynayır.

Ziyalı üç mühüm əlamətin daşıyıcısı olmalıdır: savad, əqli fəaliyyət və xalqın mədəni və intellektual inkişafı yolunda fədailik.

Şüurlu həyatı çox da uzun olmyan insan nələrə qadir deyil?! Düşünürsən, nə üçün təbiətin bu ali xilqəti bircə ömür yaşayır. Axı, bu ömür adi bir səhv üzündən fani ola bilər, heçə gedər. İkinci dəfə dünyaya gəlsə, o səhvi və ya səhvləri etməz, həyatını elə qurar ki, bir insan ömrü öz normal axarı ilə başa çatsın.

### *Yalan və yaltaqlıq haqqında*

Sinifli cəmiyyətdə hakim sinif nümayəndələri hər cür yalan danışa bilir, sözdən istifadə ilə öz məqsədlərini həyata keçirməyə can atırlar. Ürəklərində xalqa kin bəsləyən bu adamlar həqiqətə uyğun gəlməyən bəlağətli sözləri ilə xalqı aldatmağa çalışırlar.

Yaltaqlıq da sözün hörmətini itirir, kəsərini azaldır. Belə halda təkrar-təkrar deyilən söz və ifadə o məqamda mənadan düşür, boş forma kimi qulaqları cırmaqlayır.

Yalançılıqla yaltaqlıq bir pulun iki üzüdür.

Pisliyin, fitnə-fəsadın ömrü uzun olmur; xeyirxahlıq, sədaqət, düzlük daha güclüdür və son nəticədə məhz bu keyfiyyətlər üstün gəlir, bərqərar olur.

Yalan həqiqətin tərs üzüdür.

Yaltaqlıqla qəddarlıq bir xislətin iki tərəfidir, onlar bir-birini tamamlayır, biri fəaliyyətdə olanda o biri pusquda dayanır, biri o birinə «buyur, keç, irəli, indi sənin vaxtındır»- deyir.

Daxili satqınlıq tarixin səhifələrində daima qara ləkə kimi anılır.

# İKİNCİ HİSSƏ

## Gökəmli şəxsiyyətlər haqqında

### *Xətib Təbrizi haqqında*

Xətib Təbrizinin dilçiliyə dair tədqiqatları ərəb dilinə aid olsa da, onu (Xətib Təbrizini) ilk Azərbaycan dilçisi adlandırmaq olar.

### *Nizami haqqında*

Nizami təkdir, əlçatmaz zirvədir; həm də sirli-soraqlı zirvə.

Elə sənətkarlar, söz dahiləri var ki, əsərləri ədəbi-bədii nümunələr kimi ədəbiyyatşünaslığın tədqiqat imkanlarının əhatə dairəsinə sığışdığı halda, onların fikir dünyası bu dairədən xeyli kənara çıxır, bir sıra başqa elmlərin köməyinə ehtiyac yaranır. Böyük Nizaminin «Xəmsə»si təkcə ədəbiyyat tarixində tayı-bərabəri olmayan bədii əsərlər – poemalar toplusu olmaqla bizi heyrətləndirmir, həm də XII əsrə qədər dünya elminin nailiyyətlərini ifadə edən traktatlar kimi bizi heyrətə salır; dövrün və dövrlərin ədəbi və elmi möcüzəsi kimi insanları əfsunlayır. Humanitar elmlər - ədəbiyyatşünaslıq, fəlsəfə, dilçilik, etika, estetika, tarix, ictimaiyyat; təbiət elmləri – astronomiya, həndəsə, biologiya, tibb, riyaziyyat, mexanika, fizika. Nizaminin əsərlərində heç də siyahısı tam olmayan bu elm sahələrinin hamısı üçün

material, fikir, ideya, fakt var.

Nizaminin əsərləri birlikdə insan və cəmiyyət həyatının qomusu kimi səslənir.

Sözdən istifadə məsələləri Nizaminin əsərlərində mühüm yer tutur. Bu məsələlər bəzən elmi əhəmiyyət kəsb edir, bəzən arzu, məsləhət dairəsində etik əhəmiyyət daşıyır, bir sıra hallarda bədii dil, üslub problemləri ilə bağlanır.

## Marağalı Əvhədi

Marağalı Əvhədi zamanın acılarını görən, orta əsr qaranlıqlarında işığa möhtac olan sənətkarlardandır. Əvhədi dövrün ənənəsinə uyğun olaraq öz elmi fikirlərini şeir dili ilə verən, bununla da bir alim-şair kimi şöhrətlənən və Azərbaycan mədəniyyəti tarixində görkəmli rol oynayan bir şəxsiyyət olmuşdur.

## Arif Ərdəbili haqqında

Arif Ərdəbili sözün məna siqləti ilə forma gözəlliyini vəhdətdə alır və poetik sözün mahiyyətini bu vəhdət fonunda qiymətləndirirdi. Şair poeziyada sözçülüyü, məna tutumu olmayan və ona görə də oxucunu maraqlandırmayan söz düzümünü, forma xatirinə olan qafiyələndirmələri qəbul edə bilmir.

## *Nəsimi haqqında*

Nəsimi şeirlərində klassik şeir dili və xalq dili normaları bir-birindən seçilir. O bu normaları çox ustalıqla əlaqələndirirdi.

Nəsimi dili özü haqqında güclü və aydın informasiya verir. Bu dil solğun deyil, obrazlı və ifadəli dildir, eyni zamanda, ciddi və qanun-qaydalı dildir. Bu dildə dilçilik tədqiqatı üçün hər şey var; həm də bir şeyə aid onlarca nümunə var. Bu elə dildir ki, tədqiqatçı onun dairəsinə düşür, onun təsirinə qapılır və özü bildiyi kimi hərəkət edə bilmir, dil ona hakim kəsilir, tədqiqatçını istiqamətləndirir.

Nəsimi dilində ümumxalq dilini, bu dilin ədəbi səviyyəsini şərtləndirən faktları zərrəbinlə axtarmaq lazım gəlmir. Hər şey sistem halındadır, təkrar-təkrar işlənir.

İmadəddin Nəsiminin şeirlərinin dili XIV əsr Azərbaycan türk ədəbi dilini öyrənmək üçün etibarlı mənbə hesab oluna bilər.

Nəsimi azərbaycanca şeirin möhkəm əsaslarını qoymaqla, bu sahədə ciddi addım atan və Azərbaycan türk dilinə yüksək poeziya dili hüququ verən ilk böyük sənətkar olmuşdur.

XIV əsrin böyük Azərbaycan şairi Nəsiminin sənət dünyası ilə üz-üzə durarkən özünü ümman kimi dərin idrakın və səma kimi əngin xəyalın vəhdətindən yaranmış sehrli bir məbədin astanasında hiss edirəm.

Nəsimi şerinin hər bir beyti öz milli təbiəti ilə seçilir.

Nəsiminin şeir dili bir sıra cəhətlərinə görə tamamlanmış, yüksək səviyyəli ədəbi-bədii dil nümunəsidir.

Nəsimi dilində sayların adı, gündəlik nitq faktı kimi istifadəsi səciyyəvi deyil. Burada saylar daha çox, şairin dini-fəlsəfi görüşləri ilə; hürufi, sufi baxışları ilə; dünya, yaranış, yer, göy, insan, təbiət və sairə haqqındakı düşüncələri ilə bağlıdır. Elə bil ki, hər kəmiyyət altında bir aləm yatır. Nəsimi, bəzən hərflərin, nöqtələrin, sayların dili ilə – simvollar dili ilə danışır. Məhz bu mərhələdə «hərf, nöqtə və say elmi» deyilən bir fənn, bir təlim formalaşır.

Nəsimi orta əsrlərin əzabkeş mütəfəkkirlərindən olmuş, feodalizm qaranlıqları içərisində günəş kimi parlamış, əsrdən-əsrə işıq saçaraq bugünkü həyatla qovuşmuşdur.

Nəsiminin fikir dünyası yenə də mənim üçün əlçatmaz, heyrətamiz, sirli bir dünya olaraq qaldı və mən bu dünyanı yalnız kənardan seyr edə bildim.

Nəsimi "Ən əl-Həqq" deyə insanın varlığını təsdiq etməklə XVIII-XIX əsr Avropa filosoflarını neçə əsr qabaqlamışdır.

## *Füzuli haqqında*

Füzuli ümumxalq dilindən, xalq yaradıcılığı xəzinəsindən istifadə edirdi, lakin heç kəsin istifadə etmədiyi kimi istifadə edirdi.

Füzuli dil dedikdə vətənini, vətən dedikdə dilini düşünən sənətkarlardandır.

Füzuli klassik şeir dilinin təntənəsinə, onun yüksək poetik nizamına toxunmadı, əksinə, xalq dilindən götürdüklərini də oraya apardı, qeyri-adini adi deyl, adini qeyri-adi etdi. Bunların hamısını sintez edib daha yüksəklərə, Füzuli yüksəkliyinə qaldırdı. Ona görədir ki, Füzuli dili, sözün əsil mənasında, xəlqi olduğu halda, adi deyil.

Mənəvi mədəniyyətimizin hansı sahəsinə nəzər salsaq, orada bu müdrik qocanın isti nəfəsini duyarıq.

Füzuli şeirin, sənətin, ədəbi-bədii dilin əsasında xalq ədəbiyyatını, xalqın təfəkkür və dilinin büllur elementlərini vacib bir meyar sayır.

Füzuli elə bir dünyadır ki, hər adam ona yaxın düşə bilməz.

## Fədai haqqında

Fədai dili insan psixologiyasının, insanın daxili aləminin göstəricisi, ifadəsi hesab edir.

## Saib Təbrizi haqqında

Saib Təbrizinin çoxcəhətli yaradıcılığı bütöv şəkildə XVII əsr Azərbaycan bədii fikrini, mədəniyyət və elmini, hətta müəyyən dərəcədə ictimai həyatını özündə əks etdirən bir sənət abidəsi təsiri bağışlayır.

Saib şeiri nə qədər gözəl və poetikdirsə, o qədər də mənalıdır. Şaib şeir yaza-yaza onun nəzəri əsaslarını da verirdi; o özü öz poetikasını yaradırdı.

Saib sözə həm alim, həm də şair gözü ilə baxır: söz həm nitq vahidi – leksik vahid kimi izah edilir, həm də sözün poetik imkanlarından bəhs edilir.

## Abbasqulu ağa Bakıxanov haqqında

Abbasqulu ağa Bakıxanovun fikirləri onun

maarifçiliyi ilə bağlıdır, əxlaq normaları təbliğinin tərkib hissələridir; ümumən insanlara, xüsusən gənc nəslə tövsiyələridir. A.Bakıxanov insanları büllur kimi saf, möhkəm əqidəli, doğruçu, ağıllı görmək istəyirdi.

## Mirzə Şəfi Vazeh haqqında

Mirzə Şəfi Vazehin Azərbaycan ədəbi dilinin qaydaya salınmasında, öz dövrü üçün imlamızın təkmilləşməsində böyük rolu olmuşdur.

M.Ş.Vazeh bir müəllim, maarifpərvər alim kimi əlifba, ana dili və tədrisi ilə məşğul olmuş və Azərbaycan dilinə aid ilk dərslik («Kitabi-türk») yazmışdır.

## Mirzə Fətəli Axundov haqqında

M.F.Axundov Azərbaycan xalqının vətəndaşlıq, mədəniyyət, ictimai-fəlsəfi və bədii fikir tarixində görkəmli yer tutur. O özünə qədər yeni-yeni yaranmağa başlayan realist Azərbaycan ədəbiyyatını realizmin polad relsləri üzərinə qoymuş və onun bu relslər üzərində hərəkətinə güclü təkan vermişdir. Elə təkan vermişdir ki, onun inersiyası ilə ədəbiyyatımız XX əsrə qədər – Molla Nəsrəddin ədəbi məktəbinə qədər hərəkət etmiş və bu ədəbi məktəbdən yeni qüvvət alaraq inkişafını davam etdirmişdir.

M.F.Axundov əlifbaya elmin, mədəniyyətin, təhsilin açarı kimi baxırdı.

### Mirzə Ələkbər Sabir haqqında

M.Ə.Sabirin dil haqqındakı fikirləri söz və nitq haqqındakı düşüncələrlə, doğruluq, həqiqət haqqında mülahizələrlə, yalan danışmağın mənfi nəticələrinə dair qeydlərlə məhdudlaşmır. Şair öz dövrünün dillə əlaqədar hadisələrinə fəal nüfuz etmiş, hər bir ciddi dil hadisəsinə öz münasibətini bildirmiş; tərcümə məsələsi, ana dili və əcnəbi dillər, xüsusən rus dili haqqında danışmış, yeni məktəblərdə dil və əlifba tədrisi məsələlərinə toxunmuşdur.

### Firudin bəy Köçərli haqqında

Görkəmli ədib F.Köçərlinin ədəbi, elmi və publisistik irsində də dil məsələləri xeyli yer tutur. Bu görkəmli ədib, ümumən dil, söz, xüsusən ana dili, dillərarası əlaqə, əlifba və s. kimi problemlər haqqında da fikir söyləmişdir. Ədib yaxşı başa düşürdü ki, xalqın psixologiyası, mənəvi varlığı onun dilində öz ifadəsini tapır. Xalqla onun dili elə birlik təşkil edir ki, onları bir-birindən ayırmaq mümkün deyildir.

### Cəlil Məmmədquluzadə haqqında

Cəlil Məmmədquluzadənin əsərlərinin dili, üslubu, ifadələri, cümlə quruluşu, söz sırası – bütün

bunlar birlikdə ana dilinin zəngin, rəngarəng çəmənzarına bənzəyir. Azərbaycan danışıq dili bütün zənginliyi və əzəməti ilə bu əsərlərdə əks olunmuş və yeni bir qüdrətlə səslənmişdir.

Mirzə Cəlil dünyası zənginlik mənasında o qədər sirli- soraqlıdır ki, hər tədqiqatçının o aləmə girməyə gücü çatmır.

Mirzə Cəlil deyirdi ki, göz açanda dünyanı qaranlıq gördüm. Bu o dahinin həyata dahiyanə baxışı idi. O ədib bu qaranlıq dünyanı işıqlandırmağa çalışırdı. Çalışdı, çox şey etdi, bizim üçün çox şey qoyub getdi. Özü isə bu qaranlıq dünyada heçliyə çəkildi.

## Sultan Məcid Qənizadə haqqında

S.M.Qənizadəni haqlı olaraq yazıçı, müəllim, maarif xadimi adlandırırlar; bununla birlikdə, heç bir tərəddüd göstərmədən onu görkəmli dilçi alim də adlandırmaq olar. O göstərirdi ki, Azərbaycan dili elastiki dildir, onun üslubi imkanları çoxdur; bu dil hələ işlənməmiş, lakin çox zəngin linqvistik materiala malikdir.

## Məhəmməd Hadi haqqında

Məhəmməd Hadi dili fikrin ifadə vasitəsi hesab edir, dilin ekspressiv rolunu qiymətləndirir. Onun

fikrincə, sözün üzündən pərdə götürülməyincə, yəni öz ifadəsini tapmayınca, onun mənası görünə bilməz.

M.Hadi dili gizli sirlərin açarı adlandırırdı. Bütün varlığı ilə xalqa bağlı olan, qəlbi xalq və vətən eşqi ilə alovlanan şair düşüncələrini öz xalqına onun sadə ana dilində deyə bilmədi. Ona görə də o, bir şair kimi kitabların səhifələrində yaşadı, geniş kütlə arasına çıxa bilmədi.

## Abdulla Şaiq haqqında

Abdulla Şaiq çox güclü nəzəri dilçilik məlumatına malik idi- çox dil (ana dili ilə yanaşı rus, ərəb, fars dillərini) bildiyi kimi, dillərin quruluş xüsusiyyətlərini, inkişaf qanunlarını, dillər arasındakı oxşar və fərqli cəhətləri, dil sistemlərini yaxşı bilirdi.

A.Şaiqin dilə dair görüşlərinin milli dilçilik elminin inkişafında mühüm tarixi xidməti olmuşdur.

## Yusif Vəzir Çəmənzəminli haqqında

Yusif Vəzir Çəmənzəminli yazılarında özünü bir dilçi mütəxəssis kimi təqdim edir, istər nəzəri, istərsə də təcrübi mənada sırf dilçilik məsələlərinə toxunur; dilin xalqla bağlılığı, müəyyən dil ailələrinin bağlılığı, dillərin inkişafında ekstralinqvistik amillər haqqında fikirlər söyləyirdi.

## Abbas Səhhət haqqında

Abbas Səhhətin poetik nəfəsi o qədər təmiz və xəfifdir ki, ondan yazanda son dərəcə ehtiyatlı olmalısan ki, o yazıda bir dənə də nahəmvar, qulağı deşən söz işlənməsin.

## Əhməd Cavad haqqında

Əhməd Cavad bir yazıçı, bir filoloq alim kimi bütün yaradıcılığı və həyat fəaliyyəti dövründə dil quruculuğu məsələlərinin içində olub və bu gün dil məsələlərinin müzakirəsində, dilimizin adının dəqiqləşdirilməsində bu sənətkara üz tutmaq, ondan faydalanmaq olar.

Ədibin əqidəsində milli dil peyğəmbər mərtəbəsindədir.

## Bülbül haqqında

Bülbül vokal sənətinin zirvəsini fəth etmiş, hələlik o zirvəyə ikinci nəfəs dəyməmişdir.

Bülbülün yubiley gecəsində görkəmli yazıçımız Süleyman Rəhimovun dediyi sözlər yadıma gəlir. O deyirdi:"Musiqidə Üzeyir kimdirsə, dramaturgiyada C.Cabbarlı kimdirsə, poeziyada S.Vurğun kimdirsə, vokal sənətində də Bülbül odur". Dəqiq müqayisədr. Hərə öz sənətinin zirvəsindədir.

## *Heydər Əliyev haqqında*

XX əsr Heydər Əliyev kimi siyasət dahisi yetirdi.

H.Əliyevin hər şəraitə uyğun ifadə tonu var, hər məclisə uyğun söz seçmə qabiliyyəti var. Söz düzümü, məntiqi ardıcıllıq, fkir aydınlığı, sərrastlıq onun nitqinin əlamətləridir.

## *Məmməd Arif haqqında*

Məmməd Arif ədəbi-bədii dilimizin rəngarəng çiçəklər açan bağında bir qayğıkeş bağban olmuşdur.

## *Mir Cəlal Paşayev haqqında*

Mir Cəlal qızğın bir vətənpərvər idi, xalqını, ana dilini ürəkdən sevirdi. Azərbaycan klassik ədəbiyyatını, onu yaradanları, müasir Azərbaycan yazıçılarının əsərlərini tədqiq və təbliğ edirdi.

Azərbaycan filologiyasının görkəmli tədqiqatçısı, elmi əsərlərinin nəzəri səviyyəsi ilə fərqlənən alim, orijinal yaradıcılıq üslubu olan görkəmli yazıçı, neçə-neçə nəsillərin sevimli müəllimi, ustad pedaqoq Mir Cəlal Paşayev, bütün bunlarla bərabər, bir şəxsiyyət, klassik ziyalı nəslinə məxsus ədəb-ərkana, oturub-durmağa, mədəni ünsiyyətə malik bir insan

olaraq yadda qalmış, ədəbiyyat və vətən tarixində layiqli yer tutmuş bir vətəndaş kimi yad edilir.

Mir Cəlal yeganə ziyalılardan idi ki, üç yaradıcılıq sahəsində uğurla fəaliyyət göstərmişdir; sözün əsil mənasında müəllim, alim, yazıçı idi, təmiz Azərbaycan türkü idi.

Mir Cəlal bədii ədəbiyyatın məziyyətlərindən birini dil sadəliyində görürdü, özü bunun nümunəsini göstərirdi – sadə yazırdı.

Mir Cəlalın bədii dilinin sadəliyi fonunda bir şəffaflıq var; bu dil bulaq suyu kimi aydındır. Bu, ədibin hekayələrinin də, romanlarının da dilinə aiddir. Bu dilin lüğəti tər-təmizdir; orada ürəyə yatmayan, oxucunu incidən söz yoxdur. Orada artıq söz, bekar dayanan, öz lazımsızlığı ilə cümləyə, nitqə ağırlıq gətirən söz yoxdur.

Mir Cəlal hər tədqiqatçıya müyəssər olmayan bir bacarıqla XVI əsrdən XX əsrə, Füzulidən Mirzə Cəlilə və XX əsrin digər yaradıcılıq aləminə yol sala bilmiş və «Füzuli sənətkarlığı» əsəri səviyyəsində «Azərbaycanda ədəbi məktəblər» əsərini yaratmışdır. Gərək elə alim, elə tədqiqatçı olasan ki, bu müxtəlif dalğalı elm dəryasında üzməyi bacarasan.

Mir Cəlalın əsərlərində sözlə çəkilmiş tablolar, obrazlar oxucunun təsəvvüründə dərin izlər buraxır və uzun zaman yaddan çıxmır.

## *Əlağa Vahid haqqında*

XX əsrin məşhur qəzəl şairi Əlağa Vahid Azərbaycan qəzəlinin məna və məzmunca baxımından yeniləşməsində, müasir poeziyanın ümumi axınına daxil olmasında xeyli iş gördüyü kimi, bu janrın dilcə sadələşməsi, qəliz tərkiblərdən azad olması üçün də xeyli iş görmüşdür.

Ə.Vahid sözə çox qiymətli bir dil vahidi kimi müraciət edir, şair sözünü ən qiymətli daş-qaşdan üstün tuturdu.

## *Səməd Vurğun haqqında*

Səməd Vurğun nədən və kimdən yazır-yazsın, hər təsadüfdə onun istedadı özünü göstərir, vurduğu poetik xallar onun böyük sənət dünyasından xəbər verir. Bir də, bu şair heç vaxt boğazdan yuxarı söz deməmişdir, nə demişsə, biz qəbul etsək də, etməsək də, səmimi demişdir. Nə özünü aldatmış, nə də oxucusunu. Onun qələmi heç büdrəməmiş, şairin hücuma başlayan söz ordusunu inci kimi kağız üzərində düzmüşdür.

Əlbət ki, indiki baxımdan təəssüflənirsən ki, S.Vurğun nə üçün vaxtını və ilhamını belə mövzulara həsr etmişdir. Bəzən bu mənada Hüseyn Cavidi nümunə gətirirlər. Qeyd edək ki, uğurlu müqayisə deyil. H.Cavid kamil bir sənətkar kimi bu quruluşa gəlmişdi. O, sovet hakimiyyətinə və onun başında duranlara nifrət etməsə də, rəğbət də bəsləmirdi. O başqa bir dünyanın adamı idi. S.Vurğun isə, dediyimiz kimi, bu quruluşun içində yaradıcılığa başlamış, ona inanmışdır. Ona görə də S.Vurğuna mövzu iradı tutmaq doğru deyil, belə məsələlərdə tarixi gerçəkliyi yaddan çıxarmaq olmaz.

Səməd Vurğun 1930-cu illərin ortalarından başlayaraq, milli Azərbaycan şeirinin ən nüfuzlu şairi olmuş və öz dövründə, hətta sonra da uzun illər ən geniş təsir dairəsinə malik olmuşdur.

Şairlərimiz uzun zaman S.Vurğunun sehrindən qopa bilməmişlər. S.Vurğun nədən və kimdən yazıbsa, ürəklə yazıb, inanıb və sevib yazıbdır. S.Vurğun Azərbaycan ədəbi dilinin inkişafında misilsiz rol oynayıbdır.

Səməd Vurğun yaradıcılığına mövzu iradları tutmaqdansa, onun «yeni» təqdimatına «çətinlik» çəkmək kimi düşüncələrə dalınca, şairin işıqlı istək və arzularına, sətiraltı mənalarına, qəlbinin yangı-

sına, ürək döyüntülərinə qiymət vermək, bunları gəncliyə çatdırmaq haqqında fikirləşmək lazımdır. Nizami fateh İsgəndəri peyğəmbər mövqeyinə, şah Xosrovu insanilik zirvəsinə, Bərdə hakimi Nüşabəni ağıl, tədbir mərtəbəsinə qaldırmışdır. Bu, Nizami dühasına zərrə qədər də kölgə salmamışdır. S.Vurğunun hətta komsomol adı daşıyan «Komsomol poeması» da XX əsr Azərbaycan ədəbiyyatının ən yaxşı sənət nümunələrindəndir.

Səməd Vurğunun əsərləri bütünlükdə bir qəm dastanı kimi səslənir. Pambıq tıxanmış qulaqlar bu dastanın pıçıltılarını çətin eşidə.

Səməd Vurğunun əsərlərini mütaliə etdikcə elə bilirsən ki, həyat bu adamı öz məngənəsinə alıb sıxır. Elə bil ki, şair ölüm deyilən sonsuzluğun astanasında dayanıb haray qoparır. Yalvarış harayı yox, təslim olmamaq harayı. Oxucunun gözü qabağında qəribə bir mənzərə canlanır: Fərhad cüssəli, Nəsimi dözümlü, Füzuli ürəkli bir insan fələklə üz-üzə dayanıbdır. Fiziki qələbəsinə ümidi yoxdur, lakin mənəvi qələbəsinə inanır.

Səməd Vurğunun qələmi heç vaxt təbiətə ləkə salmamışdır.Vurğun qələmi təbiətdən qüvvət almış və onun qüdrəti ilə də təbiəti vəsf etmişdir.

O zaman aldanan, ölüm-dirim mübarizəsində məğlubiyyətdən can qurtarmaq, özünü qorumaq üçün başqalarını zərbə altında qoyan S.Vurğun sonralar bu dərdə dözə bilmirdi. Öz vicdanı qarşısında əzablar çəkirdi. Bəlkə də, onu vaxtsız qocaldan səbəblərdən biri elə bu idi. Onun xəstəliyinin səbəbi də elə bu idi. Şair günahlardan təmizləndi, ləkəsiz və təmiz bir Allah bəndəsi kimi dünyasını dəyişdi, ruhu isə Azərbaycan dünyasında dolanmaqdadır.

Səməd Vurğun şeir rübabının böyük ustadı idi. Bu adamın bütün mənəvi varlığı şeirlə yoğrulmuşdu. Oturuşu - duruşu, baxışı – hamısı şeir idi, poeziya idi. O, bir şair kimi, ürəyin hökmü ilə hərəkət edirdi.

Şairlə təbiət arasında insani doğmalıq yaranmışdı. O, ayaq basdığı vətən torpağının hər qarışında öz izini görürdü.

Şair özü doğma Azərbaycanın bir parçası, Azərbaycan xalqının bağrından qopan bir varlıq idi.

Səməd Vurğun özü bütöv Azərbaycanın söz tablosunu yaratmışdır.

Səməd Vurğunun əsərlərini insan haqqında nəğmələr adlandırmaq olar. Az qala hər misrasında vətən havası ilə bərabər insan nəfəsi duyulur. Bu

insan, ilk növbədə, vətən oğlu, vətən qızıdır; ümumən isə İnsandır.

Səməd Vurğun şeiri hikmətlə doludur, fikir və təfəkkür şeiridir.

Səməd Vurğun daima düşüncələr içində yaşayan filosof şair idi. S.Vurğun şeirdə fəlsəfi düşüncə notları görmək istədiyi kimi, fəlsəfədə hissin təcəssümünü görürdü, fəlsəfəyə «ağlın qüdrəti», bir də «ürəklərin saf məhəbbəti» kimi baxırdı.

Səməd Vurğun şeirini onun insan, həyat, dünya haqqındakı fəlsəfi çalarları, orijinal poetik xalları yaşadacaqdır.

Səməd Vurğun Azərbaycan xalqının danışan dili idi, sızlayan qəlbi idi – o, bütün Azərbaycan idi!

Səməd Vurğun idrak şairi idi. Fikir, düşüncə şairi idi, vətən və xalq şairi idi.

Səməd Vurğun sağlığında əfsanələşmişdir, əfsanəvi-tarixi şəxsiyyətə çevrilmişdir. Xalqın hafizəsində onun reallığı ilə xəyali obrazı bir vəhdət halında birləşmiş, o, dastan qəhrəmanı olmuş, aşıqların sazlarında səslənmiş, haqqında neçə-neçə şeirlər yazılmışdır.

## *Mikayıl Müşfiq haqqında*

Mikayıl Müşfiq şair sözünü, şair kəlamını uca tuturdu və deyirdi ki, gərək söz romantika şövqü ilə çırpınsın.

**O**, poeziyanın cərgələrini aydın, təmiz, saf saxlamaq tərəfdarı idi. O istəyirdi ki, şeir həqiqi ilhamın məhsulu olsun; söz mülkünə sahib olmayan, söz meydanında at oynatmağa çalışmasın.

## *Osman Sarıvəlli haqqında*

Sözə yüksək qiymət verən O.Sarıvəlli sözlər arasından sözlər seçir, sözün deyiliş tərzinə fikir verir, onun təsir gücünü məna ilə, mövqe ilə, nəzərdə tutulan məqsədlə əlaqələndirir; danışanın şəxsiyyətini, psixoloji vəziyyətini də bura əlavə edir. Bütün bunların fonunda sözün gücü də, təsiri də dəyişir.

**O.S**arıvəllinin şeiri və şeir dili xalq yaradıcılığından və onun dilindən müntəzəm olaraq qidalanmışdır. Şairin şeir dilnin sadə və aydınlığı, obrazlı ifadə tərzi klassik poeziyamızla, Vidadi və Vaqif şeiri ilə bağlı olduğu kimi, aşıq poeziyası ilə də bağlıdır. Həm də o bu poeziyadan bir yaradıcılıq mənbəyi kimi istifadə etməklə kifayətlənmir, onun tədqiqi ilə məşğul olur.

## *Süleyman Rüstəm haqqında*

Süleyman Rüstəmin fikrincə, sənətkarın qələmi həqiqətdən yazmalıdır; onun sözləri inandırıcı olmalıdır. Söz açıq deyilməlidir; onu qeyri-müəyyənlik dumanına, müəmmalıq pərdəsinə bürümək olmaz.

S.Rüstəm sözü həyat xəzinəsinin cəvahiratı adlandırır; şair sözünün insanları ağladan və güldürən qüdrətə malik olduğunu qeyd edir.

S.Rüstəmin əsərlərində sözlə, dillə əlaqədar bir sıra qeydlər var. Bir sıra çox mühüm məsələlərin, xüsusən ictimai-siyasi problemlərin sözlə, dillə əlaqələndirilməsi şairin sözün qüdrətinə böyük inamından irəli gəlir.

## *Məmməd Rahim haqqında*

Şairin xəyal dünyasında söz incidir, zərifdir, gözəldir; ürəyə sərinlik, qəlbə hərarət gətirir; söz insanı yüksəldir; «Qəlb üzük, söz onun təmiz qaşıdır»; söz, eyni zamanda, güclüdür, qüvvətlidir, od-alovdur, mübarizə vasitəsidir.

M.Rahim xalqın həyatında onun dilinin – ana dilinin rolunu düzgün başa düşən və onu qiymətləndirən sənətkarlardandır.

M.Rahim başqa xalqların görkəmli nümayəndələrinin Azərbaycan dilini sevməsinə, bilməsinə, onu qiymətləndirməsinə xüsusi əhəmiyyət verir və bunu iftixar hissi ilə qeyd edir. Bu mənada Lermontovun, Sayat Novanın, N.Barataşvilinin, P.Tıçinanın adlarını çəkir.

## Məmməd Cəfər haqqında

Məmməd Cəfər yaradıcılığının əhatə dairəsi istər tarixi (diaxron), istərsə də müasir (sinxron) baxımdan çox geniş, əhatəli və tutumludur. Bir neçə vaxt bütün başqa işlərinizdən ayrılıb bu alimin əsərlərini oxuyun. Sonra bir anlığa fikir aləminə dalın. əxz etdiklərinizi xəyalınızda canlandırmağa çalışın. Qarşınızda rənglərlə zəngin olan ədəbi-fəlsəfi fikir aləmi canlanacaqdır. Bu fikir dünyası çox ciddi elmi-nəzəri tədqiqat tələb edir, bu isə hər qələm sahibinin işi deyil, zira alim-tənqidçi-filosof Axundovun Məmməd Cəfər kimi tədqiqatçısı olduğu kimi, alim-tənqidçi-filosof Məmməd Cəfərin də elə Məmməd Cəfər kimi tədqiqatçısı olmalıdır.

M.Cəfər bədii tərcüməyə ümumbəşəri əhəmiyyəti olan bir ədəbi, ictimai-siyasi proses kimi baxır; onu yaradıcılıq adlandırır, ictimai fəaliyyət hesab edir.

M.Cəfər yaradıcılığını, onun əsərlərini bütöv

Azərbaycan ədəbiyyatının güzgüsü hesab etmək olar; ümumən ədəbi-ictimai fikrin güzgüsü hesab etmək olar.

Az sözlə böyük mənalar ifadə etmək hər yazana, hər alimə aid keyfiyyət deyil, bunu ancaq Məmməd Cəfər edə bilirdi və Məmməd Cəfər kimi mütəfəkkir alimlər edə bilirdi.

Məmməd Cəfər həm də bir tərbiyə məktəbi idi, oturub-durmağı, danışığı, ünsiyyəti ilə də nümunə məktəbi idi.

Məmməd Cəfər tənqidçi-filosofdur, ədəbiyyatşünas-filosovdur. Fəlsəfə, başqa sözlə, fəlsəfi aspekt onun elmi və tənqidi əsərlərinə elə çilənmişdir ki, onları bir-birindən ayrı təsəvvür etmək mümkün deyil.

## Mirzə İbrahimov haqqında

Mirzə İbrahimovun özünün yazı dili  və şifahi nitqi zəngin, səlis, gözəl nitq nümunəsi kimi təqdim oluna bilər. O, təsirli və mənalı danışıq qabiliyyətinə malik natiqdir. Danışıq ədası, səs tonu, dəqiq və sərrast ifadələri, güclü məntiqi ilə müxtəlif səviyyəli auditoriyalara təsir  edə bilir; ən mübahisəli ədəbi-bədii məclislərdə, söz sənətinə dair yaradıcılıq müzakirələrində çox vaxt həlledici söz onun olur.

M.İbrahimovun yaradıcılığı ilə M.Cəfərin yaradıcılığını müqayisə etmək, xalqa, vətənə, ədəbiyyata, mədəniyyətə xidmət baxımından onlar arasında fikir və qayə uyğunluğu görmək olur. Məhsuldarlıq, obyektivlik, yüksək nəzəri və mədəni səviyyə, fəlsəfi düşüncə, ümumiləşdirmə qabiliyyəti, gözəl ədəbi-bədii dillə ifadə bacarığı bu ədibləri yaxınlaşdırır; onları ədəbi tənqidimizin və filoloji fikrimizin iki sütunu kimi təqdim etməyə imkan verir.

M.İbrahimov bədii dilin inkişafında, yüksəlişində yazıçıların əvəzsiz rolunu qeyd etməklə yanaşı, xalqı onun – bədii dilin əsil yaradıcısı hesab edir.

M.İbrahimovun əsərlərində xalqın varlığı, milli mənəviyyatı ilə bağlı olan bu problem bütün əhatəsi ilə öz ifadəsini tapmışdır. Ana dilində danışmaq kimi adi, lakin mənalı məişət ünsiyyətindən başlamış, ana dilinin tədrisinə, ana dilində adi yazı-pozudan başlamış, bu dillə bağlı dövlət əhəmiyyətli siyasi məsələlərə qədər hər şey ədibi cəlb edir, bu sahədə hər bir nöqtə onun üçün böyük və əhəmiyyətli görünür.

M.İbrahimov hələ 1944-cü ildə yazdığı bir məqaləsində qrammatikanı qrammatika xatirinə keçmək adətini pisləyir və bu sahədə olan rəsmiy-

yətçiliyi aradan qaldırmağa çağırırdı.

M.İbrahimov əsərlərinin dilində bədiilik heç vaxt ədəbi normaların dəyişdirilməsi hesabına meydana gəlmir. Bədii dil gözəlliyi ədəbi dil güzgüsünə elə həkk edilir ki, əsasla bəzəyi, fonla çaları ayırmaq mümkün olmur; bu güzgünün üzərində heç bir düyün, heç bir çala-çuxur əlimizə toxunmur. Bu dil öz bütövlüyü, tamlığı, parçalanmazlığı ilə fərqlənir; bu dil sapını çəkəndə çözələnib tökülə bilməz, ondan bir sözü, bir ifadəni götürsək, onun yeri görünər, bütövlüyə xələl gələr.

M.İbrahimov yazıçı, alim, tənqidçi, publisist, tərcüməçi, ictimai xadim və dövlət xadimi kimi o qədər geniş və zəngin, çoxtərəfli yaradıcılıq və fəaliyyət dairəsinə malikdir ki, onu hər hansı bir kitaba sığışdırmaq çətindir.

M.İbrahimov bütün bilik və bacarığını, istedadını xalqının tərəqqisinə, vətəninin yüksəlişinə həsr edən tarixi şəxsiyyətdir.

## Rəsul Rza haqqında

Rəsul Rza dil məsələlərinə tez-tez müraciət edən sənətkarlardandır. O, dilin qüdrətini yüksək qiymətləndirir, sözün həyatda, insanlar arasında, ədəbiyyatda böyük rolunu görür.

R.Rzanın fikrincə, söz ümumən, incədir, gözəldir, mənalıdır, qüvvətlidir; lakin ondan müxtəlif məqsədlər üçün istifadə etmək olar; onu müsbət qüvvəyə də, mənfi qüvvəyə də çevirmək mümkündür; söz xoş əhval-ruhiyyə də yarada bilər, səadət, xoşbəxtlik gətirər; söz yandırıb-yaxar da, öldürər də.

R.Rza dilin lüqət tərkibinin inkişafını, ümumən, dilin səviyyəsi ilə əlaqəli götürür və ayrı-ayrı sözlərə, sözlərin məna təkamülünə də bu baxımdan yanaşır.

R.Rza şeirlərinin dili sadə, aydın və konkretdir. Onun şeir dili tədqiqata layiqdir.

R.Rza yeni sözlər işlətməyə meyilli sənətkarlarımızdandır.

## *Abbas Zamanov haqqında*

Abbas Zamanov görkəmli alim idi, publisist, tənqidçi, geniş əhatəli filoloq idi, ensiklopedik məlumata malik bir ziyalı idi; ustad pedaqoq idi.

Abbas Zamanov imperiya siyasətinə və bu siyasətə arxalanan ermənilərin ərazi iddialarına qarşı cəsarətlə səsini qaldıran, bununla da başına olmazın fəlakətlər gələn, olmazın əzablara məruz qalan, lakin sınmayan və nəhayət, həm mənən, həm də şəxsən qalib gələn Azərbaycan türk kişisi idi.

Bu dünyaya sığmayan ayrıca bir Abbas Zamanov dünyası var idi. Özünəməxsus davranış qaydaları və prinsipləri olan bir dünya. Qayğılarla, əzablarla dolu bir dünya. Sevinci üzdə olan, görünən, kədəri batində olan, görünməyən, təkcə özünə, bir də ömür-gün yoldaşı Asiya xanıma məlum olan bir dünya. Kim bilirdi ki, dünyaya sığmayan bu insanın yaşadığında göz yaşları olardı. Ancaq uyuyanda dərdləri unudulardı. Abbas Zamanov bu dünyadan getdi, özü ilə də bir dünya apardı. O dünyada insanlığa məxsus hər şey var idi. Xalqa, vətənə, insanlara məhəbbət, dostluq, yoldaşlıq; Azərbaycan, türk dünyası, böyük milli ədəbiyyat.

## Ələkbər Ziyatay haqqında

Şair ana dilində xalqın nəfəsini, sevincini, kədərini, doğma təbiətinin rayihəsini duyur, suların, sellərin gur səsini eşidir. Bunların hamısı öz ahəngi, qüvvəsi ilə bu dilin sözlərində əksini tapır.

## Vəli Məmmədov haqqında

Vəli Məmmədovun N.Nərimanov mövzusuna müraciəti təsadüfi deyildir. O , tələbəlik illərindən milli ruhlu vətənpərvər kimi yetişməkdə idi. Vətəninə və xalqına az-çox qulluq edən, lakin totalitar rejimin, millət xainlərinin güdazına getmiş istedadlara rəğbətini gizlətmirdi. Ürək açıqlığı, dostun, yoldaşın

uğurları ilə sevinmək, insana kömək, düzgünlük, tapşırılan vəzifəyə sadiqlik kimi xüsusiyyətlər bu adamın mənəvi aləminə xas keyfiyyətlər idi.

Vəli Məmmədov Azərbaycan dilinin qızğın müdafiəçisi idi. Ömrü boyu da bu yoldan dönmədi.

## *Teymur Bünyadov haqqında*

Teymur Bünyadovun "Bilsəydim ayrılıqdır" kitabı bütünlüklə bir sarı sim üstündə, poetik deyimlər üzərində qurulmuşdur. Bu deyimlərdə vətən bayatıları çalınır, ölkənin, doğma yurdun dağı-dərəsi, eli-obası, şəhəri-kəndi bayatı dili ilə vəsf edilir. Azərbaycanın, klassik Azərbaycanın sözlə xəritəsi çəkilir

## *Balaş Azəroğlu haqqında*

Azərbaycanın görkəmli vətəndaş şairi Balaş Azəroğlu yaradıcılığa qədəm basan anlardan sözün qüdrətini, söz gücünün qida mənbələrini hiss etmişdi.

B.Azəroğlu sözlərinin kəsərinə, sözləri ilə düşmənlər üzərində mənəvi qələbə çaldığına görə iki şairə - azərbaycanlı Nəsimiyə və macar Şandor Petefiyə qibtə etdiyini bildirir.

B.Azəroğlu dilin azadlığını vətənin, xalqın azadlığı ilə əlaqələndirir. Ümumiyyətlə, onun yaradıcılığında ictimai motivlər çox güclü olduğu üçündür ki, o, haqqında danışdığı hər bir məsələyə ictimai məna verir; hadisəyə, predmetə ictimai-tarixi nöqteyi-nəzərindən baxır, dövrün, həyatın tələblərindən çıxış edir. Onun dil məsələlərinə baxışları da belə ictimai məna kəsb edir. Şair ana dili uğrunda mübarizəni azadlıq uğrunda mübarizələrin tərkib hissəsi kimi təqdim edir.

## Məmməd Araz haqqında

Məmməd Araz poeziyası təpədən dırnağa millidir, eyni zamanda dünyəvidir. Burada insan var, burada insan taleyi var. Dünyaya, bəşərə, tarixə fəlsəfi baxış var.

XX əsr Azərbaycan poeziyası Məmməd Araz zirvəsi ilə yekunlaşır.

Böyük Azərbaycan poeziyasında fərqlənmək, xüsusən parlamaq çox çətindir; ənənədən, milli əsasdan ayrılmadan fərqlənmək, hətta sadəcə fərqlənmək yox, parlamaq çox çətindir. M.Araz poeziyası bu poeziya aləmində fərqləndi və parlaya bildi.

## *Nəbi Xəzri haqqında*

Nəbi Xəzri gözəl lirik şeirləri və poemaları ilə poeziya çələngimizdə fəxri yer tutur.

Nəbi Xəzrinin şeirlərində şifahi poeziyamızın dilinə məxsus təbiilik və şirinlik, Azərbaycan şeirinin dilinə məxsus düzgünlük və qanunatabelik vardır.

Nəbi **X**əzrinin əsərlərini insan və vətən haqqında nəğmələr adlandırmaq olar. Onun hər bir şeirindən insan nəfəsi gəlir, vətən havası duyulur.

Nəbi **X**əzri üslubunun aydınlığı adamı heyran qoyur. Bu mənada həmin şeirləri daşlardan sızaraq axan bulaq suyuna bənzətmək olar: tər-təmiz, aydın, şəffaf. Elə təmiz ki, baxanda suyun dibindəki çınqılları görmək olur. Bir də bu şeirlər insanla nəfəs alır, onların sətirləri arasından canlı insan boylanır.

Nəbi **X**əzrinin əsərlərində dil haqqında mülahizələrin xəritəsi çox genişdir; burada ayrı-ayrı dillər, ümumxalq dili, ümumən ədəbi dil, eləcə də ədəbi-bədii dil və s. haqqında maraqlı fikirlərlə tanış olmaq mümkündür. Həmin fikirlər öz qidasını bu poetik düşüncələrdən alır..."Dil insan ürəyinin, insan duyğularının, insan düşüncələrinin açarıdır. Dil uca dağ adlandırdığımız zirvə daşlarıdır."

## Hüseyn Arif haqqında

Hüseyn Arifin yaradıcılığına nəzər salan hər kəs deyə bilər ki, o, sözün qüdrətini duymuş və öz sənəti ilə göstərə bilmişdir ki, doğrudan da bacaranın əlində söz dağlar qədər əzəmətli olur, söz vuruşur, mübarizə edir, arxa, kömək olur.

Əsərlərindən torpağın-daşın, gülün-çiçəyin ətri gələn, ata-babanın, qocanın-qarının, keçmişin və indinin səsləri, qoyun-quzu, ceyran-cüyür mələşməsi, bülbüllərin cəh-cəhi eşidilən, ilham çeşməsi bulaqların büllur sularına bənzəyən bu gözəl sənətkar yalnız yazıb-yaradanda, yəni bilavasitə sözdən istifadə edəndə deyil, söz haqqında danışanda da məhz həmin «Bir kəlmə söz bir dağ olur bu dünyada; söz arxadır, söz ümiddir, söz diləkdir; döyüşdə də, yürüşdə də söz gərəkdir», - tezisindən çıxış edir.

## Mədinə Gülgün haqqında

Azərbaycanımızın incə rübablı, coşub-daşan şairi Mədinə Gülgün şeirinin ilham mənbələri sırasında söz və ana dili ən vacib həlqələri təşkil edir.

## Bəxtiyar Vahabzadə haqqında

1960-80-ci illərin poetik ədəbi prosesində Bəxtiyar dəsti-xətti, Bəxtiyar ədası, Bəxtiyar nəfəsi açıq

və ya örtülü formada özünü göstərir və ya hiss edilir. «Şəbi-hicran»da Füzuli dühası ilə Vahabzadə sənəti qovuşur, həm düşündürür, ağıla-şüura təsir edir, həm də ürəyə dolur, hissə-qəlbə qida verir.

B.Vahabzadənin dilində xüsusi yer tutan ifadələr yaranır və çox güman ki, bu ifadələr bir zaman bu və ya digər formada atalar sözü və məsəllər kimi, xalqın dilində səslənəcəkdir.

Şairin poetik Məninin ifadəsində dildə lirizm ön plana keçir, sözlər baharın nəfəsini duyub yuvalarından çıxan qanadlı canlılar kimi havalanır.

Milli qaynaqlı, mili olduğu qədər də beynəlmiləl olan Bəxtiyar şeiri məhz bu gözəgörünməz ağıl və hisslər dünyasında yetişir. Yetişir və yüksək poetik vüsətlə, zəngin və şirin dilimizin rənglərinə, min bir çalarına boyanaraq həyata gəlir, vərəqlərə köçür, dillərdə gəzir, ürəklərdə yurd salır.

Vətən Bəxtiyar Vahabzadə şeirində konkret təzahür formaları ilə, çalarları ilə əks olunur. O öz başlangıcını insanın göz açıb gördüyü, ilk addımlarını atdığı kəndlərdən, cığırlardan; əyilib su içdiyi bulaqlardan, arxlardan; meyvə dərdiyi, göbələk topladığı bağlardan, meşələrdən; ana laylasından, ana dilindən, əlifba kitabından alır.

Bəxtiyar Vahabzadə bədii əsərlərində həm də alim, elmi yaradıcılığında həm də şair, hər ikisində isə müəllimdir, tərbiyəçidir. Qəribə də olsa, deməliyik ki, bir sıra hallarda şair Bəxtiyarla alim Bəxtiyarın problematikası da üst-üstə düşür.

Əsrimizin ən görkəmli şairlərindən biri, adı, şöhrəti, hörməti, nüfuzu ... olan Bəxtiyar Vahabzadə nikbin şair olsaydı, "Atılmışlar"ı yaza bilərdimi, cavanlığın oynaq havasına qoşulsaydı, "Gülüstan"ı yaza bilərdimi?!

## Cabir Novruz haqqında

Cabir Novruz müasir poeziyamızı yaradanlar sırasında özünə məxsus yeri olan şairlərdəndir. O, elə sənətkarlar sırasına daxildir ki, onlarsız şeirlərimizin indisini və gələcəyini təsəvvür etmək çətindir

## Nəriman Həsənzadə haqqında

Nəriman Həsənzadənin yaradıcılığında, eləcə də onun şeirlərində güclü həyat eşqi var. Onlar nikbin ruhu, məna siqləti, poetik vüsəti ilə oxucunu həyata bağlayır, gələcəyə inamını artırır.

Onun yaradıcılığında sözün xüsusi çəkisi var. Şairin dilinin rəvanlığı, əsərlərindəki məqsəd aydın-

lığı, poetik vüsət və başqa keyfiyyətlər onun söz həssaslığı ilə, söz seçmək, onu cilalamaq bacarığı ilə əlaqədardır.

## *Xəlil Rza Ulutürk*

Xəlil Rza sözlər aləmində yaşayır desək, səhv etmərik. Həm də yalnız bir şair, sənətkar kimi deyil, bir insan, vətəndaş kimi də o, sözlərin, sözlər onun daimi qonağı, yol yolçusu, həmdəmidir; «mən ana qartalam, söz bala qartal; köksünə baş qoyub çolpalar yatır»- misraları bu münasibətin ifadəsidir.

Xəlil Rzanın düşüncələrində söz incədir, zərifdir, gözəldir, həm də odlu-alovludur, qüdrətlidir, təsirlidir. Ona görə də şair sözə həssas olmağa çağırır, belə hesab edir ki, söz insanı ucaldır da, onu hörmətdən də salır.

Xəlil Rza ana dilinə poeziya fonunda da baxır. Burada onun dadı, duzu, təmizliyi bir qədər də aydın görünür.

## *Elçin haqqında*

Elçin böyük Azərbaycan ədəbiyyatını və ədəbiyyatşünaslığını XX əsrin ikinci yarısında yeni istiqamətdə inkişaf etdirən istedadlı yazıçı (nasir, dramaturq, tənqidçi) və filoloq alimdir. Elçin epoxal

yazıçıdır, dövrün və dövrlərin yazıçısıdır.

Elçinin dramaturgiyası M.F.Axundovun pyeslərindən başlanan, nisbətən, qısa tarixə malik olsa da, zəngin yol keçən Azərbaycan dramaturgiya yaradıcılığında bir mərhələ təşkil edir.

Elçinin hekayə və povestlərində dilə dair fikir deməyə əsas verən epizodlar, bəzən də qəribə epizodlar çoxdur.

## *Sabir Rüstəmxanlı haqqında*

Sabir Rüstəmxanlının «Ömür kitabı»nı həyəcansız oxumaq olmur, onu hissə-hissə oxumaq da mümkün deyil, başladınmı, qurtarmalısan, elə bil susamış adam bir qab sərin bulaq suyunu bir dəfəyə başına çəkir. Nələrdən danışmır bu kitab? Başdan-ayağa vətən ab-havası, vətən dünyası, Azərbaycan elləri, xalqın ömür yolları, mənəvi-əxlaqi keyfiyyətləri, həyat tərzi, musiqi aləmi, adət- ənənələri, duyğu və düşüncələri, keçmişimiz-indimiz.... Bu tarixin, səyahət dastanının, yazıçı düşüncələrinin bədii-publisistik ifadəsidirmi, yoxsa bunların sintezi kimi yanar bir vətəndaş üzərindən keçib gələn vətən himnimi? Bu kitab S.Rüstəmxanlının vətən nəğməsidir.

## İsa Həbibbəyli haqqında

İsa Həbibbəyli Azərbaycan elminə, Azərbaycan filologiyasına yeni nəfəs gətirən böyük alimdir; bugünkü elmimizə istiqamət verən tədqiqatçıdır. Bu görkəmli alimin elmi yaradıcılıq marağı o qədər geniş və sanballıdır ki, onu açmaq, onu əhatə etmək ona layiq söz demək mənim üçün çox çətindir, ancaq nəsə etməyə çalışacağam.

İsa Həbibbəylinin yazılarının hamısını birləşdirən, bu yazıların qəlbindən qırmızı xətt kimi keçən bir keyfiyyət var: öyrəndiyi, dərs aldığı, təsirləndiyi, ədəbi irsdə adı olan, həyatda mərdi-mərdanə yaşayan insanların xatirinə ehtiram.

## Hidayət Orucov haqqında

Hidayətin bədii yaradacılığının mərkəzində poeziya dayanır. O, nasir kimi də orijinaldır. Ədibin şeiri də, nəsri də eyni əsasda köklənibdir. Bu əsas onun bütün yaradıcılığı üçün səciyyəvi olan işıqlı insanpərvərlik amallarıdır. Bu amalların mərkəzində dövrün insanı dayanır, yaşayıb-yaradan insan. Hər addımda Azərbaycan türk oğlu kimi hərəkət edib, vətəninin, xalqının mənafeyini – ümumin mənafeyini hər şeydən üstün tutubdur.

Hidayətin "Doxsanıncı il" kitabında elə bil klassik Azərbaycanın xəritəsi çəkilibdir. Onun şeirləri dolğun məna yükü ilə bərabər, dərin lirizmlə aşılanmışdır. Şeirlərin misraları həkimanə sözlər səviyyəsinə yüksəlir; "Nəgmə məhəbbətin çağırış səsidir".

# YUSİF SEYİDOV
## yaradıcılığından seçmələr

Format 60x90 1/16. F.ç.v. 6,5. Tiraj 100.

Turxan NPB.